

Milli azadlıqdan
şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

21 dekabr
2024-cü il,
şənbə
№ 236 (6822)
Qiymət
60 qəpik


# İlk genişlənmə planı - seçim Azərbaycandır!

Bax səh. 2

## Ölkəmizin növbəti diplomatik uğuru

Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.

Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.

Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.

Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

Bax səh. 2

# Müasir dövrün LİDER portreti!




Bax səh. 3

## Cənubi Qafqazı qarışdırmaq planı və iflası...

Bax səh. 3

## Azərbaycan və Türkiyənin yeni layihəsi

Azərbaycan və Türkiyə arasında qarşılıqlı nəqliyyat daşınmalarında elektron icazənin tətbiqinə start verilib. Belə ki, dekabrın 16-dan birbaşa elektron icazə (“e-icazə”) sistemi əsasında ilk yükdaşımaları həyata keçirilib. “E-izacə” ilə Azərbaycandan yola düşən ilk yük avtomobili dekabrın 18-də Türkiyə ərazisinə daxil olub. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, Türkiyə ilə ikitərəfli yükdaşımalarda elektron icazənin tətbiqi sınaq daşınma xarakterli olsa da, yaxın günlərdə daşıyıcı şirkətlərə məxsus yük avtomobillərinin davamlı “e-izacə” prinsipi üzrə hərəkəti təmin olunacaq. Beləliklə, mal və xidmətlərin mübadiləsində tələb olunan “İcazə” blanklarının elektronlaşdırılması mexanizmi işə düşməklə nəqliyyat sektorunda rəqəmsallaşmaya keçid üçün yeni təməllər yaradıb.

**Tranzit potensialının artırılmasında yeni imkanlar**

Regionun aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilən Azərbaycan beynəlxalq yükdaşımalarda elektronlaşma və rəqəmsal texnologiyaların tətbiqini genişləndirməklə daha asan və şəffaf tranzit sistemi qurmağı qarşıya hədəf qoyub. 2023-cü ilin noyabrında dövlət başçısının müvafiq sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı”nda nəqliyyat sektorunda yükdaşımaların rahat və maneəsiz keçidinin təmin edilməsi üçün rəqəmsal texnologiyaların genişləndirilməsi prioriteti müəyyənləşib. Sənəddən irəli gələn tədbirlərin icrası məqsədilə elektron infrastrukturun qurulmasında mühüm addımlar...

Bax səh. 5

## Milli Məclisin iclasında...




Bax səh. 2

## İcmadan Paşinyana cavab...

Bax səh. 4

## Rusiya-Ukrayna müharibəsi: Ortaq kompromislər mümkündürmü?

Bax səh. 6

## Şərab şüşəsində saxlanan zaman

Bax səh. 7

## Namərdliyi kim edir?

Hazırda beynəlxalq münasibətlər sistemində dərin böhran mövcuddur. Bu gün dünyada beynəlxalq nizam pozulub, beynəlxalq hüquq normaları işləmir. Belə olan halda bir sıra hegemon dövlətlər digər xalqlara münasibətdə öz maraqları baxımından yanaşırlar. Qərbin və onun təsir dairəsində olan beynəlxalq təşkilatların geosiyasi ambisiyalara söykənən maraqları da dünyada ciddi təhdidlər yaradır. Həmin dairələrin yanaşmasında özünü göstərən başlıca tendensiyalardan biri də ikili standartlara əsaslanan mövqedir. Bu baxımdan, bəzi Qərb dövlətləri, xüsusilə ABŞ “öndə” gedir.

Məlumdur ki, ərazi bütövlüyünü və suverenliyini öz gücünə bərpa edən Azərbaycan dövləti Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Bu amil, həm də dövlətimizin beynəlxalq münasibətlər sistemində nüfuzunu və mövqelərini gücləndirir. Təəssüf doğuran hal odur ki, Azərbaycan BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra ABŞ da daxil olmaqla bir sıra Qərb ölkələri ölkəmizə qarşı qərəzli mövqe sərgiləyir.

**XİN: Keçmişdəki səhvlərdən dərs çıxarmaq gələcək uğurlu addımlar üçün əsas şərtdir**

Ötən il Qarabağda antiterror tədbirləri nəticəsində erməni separatizminin kökü kəsildikdən sonra ABŞ tərəfindən ölkəmizə qarşı ədalətsiz addımlar daha da artıb. Həm Konqres, həm də Dövlət Departamenti səviyyəsində verilən bəyanatlar, keçirilən dinləmələr və s. bunun göstəricisidir. Eləcə də, Azərbaycanda keçirilən COP29 ərəfəsində və sonra da əsassız hücumlar olub. Bir neçə gün öncə isə ABŞ Dövlət Departamentinin rəsmi şəxsləri tərəfindən guya mediaya və vətəndaş cəmiyyətinə təzyiqlərlə bağlı fikirlər səsləndirilib. Birləşmiş Ştatların bu yanlış mövqeyi ölkəmizdə etirazla qarşılanır. Müxtəlif siyasətçilər, rəsmi qurumlar, media orqanları tərəfindən...

Bax səh. 4



## Erməni lobbisinin yuvası - Avropa Parlamenti

Bax səh. 4



## Yeni ilə yeni siyasi böhranla

Bax səh. 6

## Sağlam tənqidə dözümsüzlük, yaxud “uğursuz dövlət!” sindromu...



Bax səh. 5

# İlk genişlənmə planı - seçim Azərbaycandır!

## Ölkəmizin növbəti diplomatik uğuruD-8 təşkilatına üzv qəbul edilməmiz ölkəmizin siyasi - iqtisadi uğurlarının növbəti təcəssümüdür


Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.

Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.

Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.

Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

Yeni dünya nizamının dövlətlər üçün ən mühüm çağırışlarından biri sabitliyə və tərəfdaşlığa veriləcək töhfələr, əməkdaşlıq platformalarının müasir inkişaf standartlarının yenilənməsində iştirakdır. Azərbaycan bu qlobal prosesdə mühüm siyasi, diplomatik uğurları ilə seçilir. Ölkəmiz beynəlxalq əməkdaşlıq platformalarında fəal şəkildə təmsil olunur, strateji tərəfdaş kimi qəbul edilir, beynəlxalq hüquq müstəvisində demokratik inkişaf yoluna sadiqlik nümayiş etdirir, yaxın qonşuluq və səmimi əməkdaşlıq siyasəti yürüdür. Bu uğurlu siyasət nəticəsində qısa zaman kəsiyində olduqca mühüm nailiyyətlər əldə edib:

- Ölkəmiz Qərbin bir sıra ölkələri ilə yüksək əməkdaşlıq əlaqələrinə malikdir - Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsəsində əsas yerlərdən birini tutur;
- Paralel olaraq Şərq ölkələri ilə yaxın dostluq münasibətlərimiz mövcuddur - Azərbaycan Ərəb Liqası, İslam Əməkdaşlıq Təşkilatı kimi müsəlman dövlətləri birliyinin ən yaxın müttəfiqi sayılır.

Beləliklə, əməkdaşlıq, tərəfdaşlıq və təhlükəsizlik seqmenti üzrə ən yüksək göstəricilərə malik olan Azərbaycanın qlobal çağırışlara uğurla cavab verməsi, ən mühüm anlarda beynəlxalq aləm üçün vacib olan qərarların verilməsində mühüm rol oynaması bir daha ön plana çıxır. Prezident İlham Əliyevin yürütdüyü siyasət əməkdaşlığa, qarşılıqlı milli maraqların qorunmasına əsaslandığı üçün dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar Azərbaycana etimad göstərir. Bir neçə gün öncə ölkəmizin D-8 təşkilatına üzv qəbul edilməsi növbəti diplomatik qələbəmizdir.

### 3 qitəni əhatə edən "İslam Səkkizliyi"nin yeni üzvü...

Qeyd edək ki, dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammitində Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Azərbaycan yaradılışından sonrakı mərhələdə təşkilatın ilk genişlənməsidir - əslində bu, olduqca mühüm bir amildir. Müsəlman dünyasının ən mühüm iqtisadi birliklərindən sayılan, mühüm siyasi perspektivə malik olan təşkilatın yaranışından sonra ilk dəfə genişlənmə planında Azərbaycanı üzv qəbul etməsi ölkəmizin qlobal aləmdəki mühüm yerini göstərir. Xatırladaq ki, üç qitəni əhatə edən D-8 4 trilyon ABŞ dollarından artıq ÜDM-ə malikdir. 130 milyard ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının ümumilikdə, dünya müsəlmanlarının 60 faizi təşkil edən (ümumi əhali 1,2 millyarddan artıqdır) və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəsini özündə birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında qoyulub. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. O zamandan bəri, təşkilatın liderləri mütəmadi olaraq zirvə görüşləri təşkil edərək, iqtisadi əməkdaşlıq və inkişaf məsələlərini müzakirə edirlər. Son Zirvə Konfransı 19 dekabr 2024-cü ildə Misirdə keçirilib. Bu toplantıda, üzv ölkələr arasında ticarətin artırılması, texnologiya transferi və enerji sahəsində əməkdaşlığın gücləndirilməsi kimi mövzular ön planda olub. Təşkilatın gələcək planları arasında, üzv ölkələrin iqtisadi inteqrasiyasının dərinləşdirilməsi və qlobal iqtisadi sistemdə daha güclü bir mövqe əldə etmək üçün birgə strategiyaların inkişaf etdirilməsi kimi məsələlər yer alır. Katibliyi İstanbul şəhərində yerləşən D-8-in yeni hədəfləri "2020-2030 illər yol xəritəsi" sənədində əks olunub. Bu sənəd təşkilatın güclənməsi və inkişafını hədəfləyir. Yol xəritəsi çərçivəsində üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafı, təhlükəsizlik, sabitlik və rifahın artırılması kimi məqsədlər müəyyən edilib.

### Strateji iqtisadi göstəricilər, hədəflər...




### Geosiyasi əhəmiyyət, yaxın əməkdaşlıq planları...

D-8 qrupunun siyasi əhəmiyyəti iqtisadi əhəmiyyətindən az deyil. Belə ki, yeni siyasi-iqtisadi nizamda özünəməxsums rol oynayacaq bəzi dövlətlərin gələcək iqtisadi inkişaf perspetkivləri olduqca böyükdür. İqtisadi inkişaf isə özlüyündə siyasi təmərküzləşməni də əhatə edir. Bu mənada, inkişaf etməkdə olan müsəlman ölkələrinin beynəlxalq arenada kollektiv şəkildə çıxış etməsi qlobal məsələlərdə daha təsirli rol oynaya bilər. Bu, üzv ölkələr arasında həmrəyliyi artırır və onların qlobal siyasətdə daha güclü bir mövqe əldə etmələrinə imkan yaradır.

Sirr deyil ki, qarşıdakı mərhələdə dünyanın əsas diqqəti məhz yeni siyasi-iqtisadi aktorların yer alacağı regionlara yönələcək. Azərbaycanın son illərdə Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi situasiya və bu siyasi situasiyaya əsaslanan yeni qlobal iqtisadi layihələr olduqca vacib amilə çevrilir. Azərbaycanın D-8-ə üzv kimi qəbul edilməsi bu reallıqların dünya ictimaiyyəti, eyni zamanda müsəlman dünyası tərəfindən açıq şəkildə dərk olunduğunu göstərir.

### Qlobal məkanda əldə edilən növbəti dəstək...

Təbii ki, Azərbaycanın yeni mərhələ üçün formalaşdırdığı siyasi-iqtisadi mənzərə Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. D-8-ə qoşulmamfz ilk növbədə ölkəmizin multilateralizm siyasətinə sadiqliyini bir daha nümayiş etdirir. Beləliklə, bir həqiqət növbəti dəfə təsdiqlənir - Azərbaycanın məyyənləşdirdiyi siyasi hədəflər yalnız Cənubi Qafqaz sərhədləri ilə məhdudlaşmır, daha geniş geocoğrafi anlam daşıyır. Əgər 2020-ci ilə qədər Azərbaycan özünün inkişaf göstəricilərinə əsasən Cənubi Qafqazın lideri sayılırdısa, post-müharibə dövründə, qlobal oyunçu kimi beynəlxalq münasibətlər sisteminin mühüm bir parçasına çevrilməyi bacarıb. Bu, Azərbaycanın təşkilat çərçivəsində həm çoxtərəfli, həm də ikitərəfli formatda əlaqələrinin inkişafına təkan verəcək. Paralel olaraq D-8-ə üzvlük və İslam Əməkdaşlıq Təşkilatındakı fəal fəaliyyət ölkəmizin xarici siyasətində bir-birini tamamlayan elementlər kimi çıxış edir. D-8 üzvlüyümüz bir daha sübut edib ki, Azərbaycan hazırda sürətlə inkişaf edən, davamlı ictimai-siyasi sabitliyə malik, yüksək iqtisadi göstəricilərə nail olan və dünya ictimaiyyətinin rəğbətini qazanan dövlətlərdəndir.

Vurğulanmalıdır ki, ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasına, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq. Azərbaycan bu mənada beynəlxalq birlik üçün əməkdaşlıq və tərəfdaşlıq nümunəsi sayıla bilər - ölkə maraqlarının qlobal mənafe ilə üzlaşdırılması, konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, sabitliyə xidmət edən xəttə dəstəyin verilməsi, sülh uğrunda yorulmaz səy göstərilməsi Azərbaycanın yaratdığı reallıqlar içində dəstəklənən yeni münasibətlər sisteminin ana xəttini təşkil edir. Bu çərçivədə həmçinin geniş regionumuzda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət və

### Şərq ilə Qərbi birləşdirən dəyər...

bir sıra digər vacib istiqamətlərdə əlaqələrinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, D-8-in son toplantısından çıxan nəticədə də məhz Azərbaycanın geosiyasi mövqeyinin, geniş iqtisadi potensialının, strateji tranzit məntəqələrinin və inkişaf etmiş nəqliyyat infrastrukturunun vasitəsilə təşkilatı daha da möhkəmləndirəcəyinə əminlik ifadə olunur. Bu da təsadüfi deyil - tarixən Şərq ilə Qərb arasında siyasi-iqtisadi, mədəni körpü rolunu oynayan, İslam dünyasının ən mühüm sivilizasiya mərkəzlərindən sayılan Azərbaycanın D-8 üzvlüyü həm də İslam həmrəyliyinin möhkəmlənməsində, İslam dəyərlərinin dünyada təbliğində və İslamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq...

*P.İSMAYILOV*

## Q.M.Məhərrəmliyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasında media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Qulu Məmmədqulu oğlu Məhərrəmliyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 dekabr 2024-cü il***

### Milli Məclisin iclasında...

## Avropa Parlamentinin qərəzli qətnaməsinə etiraz edən millət vəkilləri ölkəmizin D-8-ə qəbul olunmasını yüksək qiymətləndiriblər

Dekabrın 20-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 11 məsələ daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova parlamentin nümayəndə heyətinin Türkiyəyə səfərinin yekunları barədə məlumat verib.

Sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Deputat Azər Badamov bildirib ki, İsveçrə parlamentinin aşağı palatasında qəbul olunmuş anti-Azərbaycan çağırışından sonra Avropa Parlamenti də əsassız qarayaxmalarla dolu anti-Azərbaycan və islamofob bir qətnamə qəbul edərək ölkəmizin daxili işlərinə qarışmaq cəhdlərini davam etdirməkdədir. Onun sözlərinə görə, Fransa və erməni lobbisinin təsiri altına düşmüş Qərbi narahat edən əsas məsələ Azərbaycanın öz ərazilərinin suverenliyi təmin etməsi, müstəqil siyasət yürütməsi, COP29 kimi böyük beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsidir: "Əslində, Avropa Parlamentində bir azca ədalət olsaydı, ilk növbədə Avropanın mərkəzində yerləşən Fransada diktaturadan, Makron hakimiyyətinin XXI əsrdə davam etdirdiyi neokolonizm siyasətindən və ada dövlətlərində yaşayan xalqların təməl hüquqlarının kobudcasına tapdalamasından danışardı. Qərbin ölkəmizə qarşı siyasi təzyiq cəhdləri davam etdirildiyi bir gündə Azərbaycanın Qahirədə keçirilən (D-8) İqtisadi Əməkdaşlıq Təşkilatının samittində bu təşkilatın üzvlüyünə qəbul edilməsi çox əlamətdar hadisədir. Dünya müsəlmanlarının 60 faizini, yəni 1,1 milyard insan olmaqla dünya əhalisinin 15 faizini birləşdirən 4 trilyon dollar ÜDM -ə malik bu təşkilata üzvlüyümüz Azərbaycana yeni imkanlar qazandıracaq".



Millət vəkili Ceyhun Məmmədov da çıxışında Azərbaycanın D-8-ə qəbul edilməsinin bu quruma güc qatacağını qeyd edib. Onun sözlərinə görə, bu gün Azərbaycan ölkəmizin həyata keçirdiyi uğurlu siyasət nəticəsində müsəlman dünyasının lider dövlətlərindən birinə çevrilib. Azərbaycan müsəlman dünyasını narahat edən hər bir məsələyə həssas yanaşır. Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyevin Suriyada baş verən son proseslərlə bağlı Türkiyə Prezidenti ilə danışması, Azərbaycanın Suriya xalqına humanitar yardım göstərməyə hazır olmasını ifadə etməsi bu fikri bir daha təsdiq edir. Bu gün Azərbaycan müsəlman ölkələrinə qarşı həyata keçirilən ikili standartlara, ədalətsizliyə öz münasibətini açıq bildirən azsaylı ölkələrdəndir.

Azərbaycanın D-8-ə üzvlüyünü təqdir edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Türk dövlətləri arasında informasiya məkanını qorumaq üçün Bakı Bəyannaməsi imzalanmasını təklif edib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Qüdrət Həsənquliyev də D-8 təşkilatına üzv olmaq münasibətilə təbriklərini çatdırıb və Ümumdünya Ticarət Təşkilatına üzvlüyü də zəruri sayıb.

Çıxış edən digər deputatlar da aktual mövzularla bağlı fikirlərini bildiriblər.

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. Əvvəlcə "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişikliklər üçüncü oxunuşda qəbul olunub. Sonra "Diplomatik xidmət haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirə edilib.

Millət vəkilləri Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişikliklər layihəsini də ikinci oxunuşda qəbul ediblər. Gündəlikdə olan digər sənədlər də müzakirə edilərək təsdiqlənib.

Sonda spiker Sahibə Qafarova Milli Məclisin növbəti plenar iclasının dekabrın 27-də keçiriləcəyini deyib.

*Nardar BAYRAMLI*

# Müasir dövrün LİDER portreti!

## İlham Əliyev regionun siyasi-iqtisadi simasını dəyişir: "ehtiyat skamyasından" "əsas heyətə"...

## Məqsədimiz sülh, inkişaf və əməkdaşlıqdır - səbrlə, təmkinlə, və ən əsası hər şeyi vaxtında edərək bunlara nail oluruq və olacağıq




XXI əsr üçün spesifik olan ictimai-siyasi fərqləndirmələrdən biri də qlobal inkişaf ünsürlərinin parametrlərinin dəyişməsidir. Belə ki, XX yüzillikdə dövlətin ideoloji-siyasi yönümü (sosialist və ya kapitalist ideologiyaya əsaslanması) onun qlobal atlasdakı yerini müəyənləşdirirdisə, XXI əsrdə bu göstəricilər tam fərqli şəkil alır. Günümüzün get-gedə güclənən qütb savaşları, beynəlxalq hüquqa əsaslanan mövqelərin ikinci plana keçirilməsi fonunda sülh və ədalət uğrunda mübarizə aparmaq bəzən "utopiya" kimi də görünə bilər. Amma ortada reallıq və həqiqət var - Azərbaycanın son 4 ildə ortaya qoyduğu siyasi iradə, siyasi qətiyyət, dəyişən reallıqlar, ortaya çıxan yeni siyasi mənzərə müasir tendensiyaların arasında seçilir, fərqlənir...

### Liderlik funksiyası: qlobal fərqli maraqlara milli mənafedən baxış...

Məşhur frazada qeyd edildiyi kimi: istisnalar hər zaman mövcuddur. Bəllidir ki, qütbləşmənin açıq xarakter aldığı və kataklizmlərlə dolu dünyada bütün dövlətlər və ya təşkilatlar tərəfindən qəbul edilməklə olduqca çətin bir işdir. Xüsusilə, qrup maraqlarının önə çıxdığı son dövrlərdə beynəlxalq münasibətlər sistemində uğurlu təmsilçilik mümkünsüz hala çevrilib - bəzi hallarda iqtisadi baxışlar, bəzən siyasi situasiya, bəzən ambisioz iddialar, bəzən təhlükəsizlik amili, bəzən isə ikitərəfli münasibətlərdə ortaya çıxan ziddiyyətlər maraqların kəsişməsinə, üst-üstə düşməsinə imkan vermir. Belə bir mənzərədə qlobal oyunçuların lokal maraqlara fokuslanmasının müşahidə olunması təbiidir - əksinə, fərqli coğrafiyalarda özünün konkret inkişaf strategiyasını müəyyənləşdirən dövlətlər isə hədəflərini multilaterializm prinsiplərinə əsaslanmaqla çatmağı daha məqsədəuyğun sayır.

Məsələn, Azərbaycan dövlətinin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursu ölkəmizin dünya miqyasında siyasi-iqtisadi nüfuzunun gün-dən-günə artmasında əsaslı şərt kimi çıxış edir. Əldə olunan yüksək iqtisadi göstəricilər, diplomatik uğurlar, regionda formalaşdırılan və təhlükəsizliyə istiqamətlənən yeni siyasi reallıqlar, eyni zamanda, fərqli coğrafiyaların enerji təminatında oynadığı əhəmiyyətli rol Azərbaycana olan qlobal marağın artamasını şərtləndirib. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yol yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə mühüm töhfələr vəd edir - burada əsas məqamlardan biri də Azərbaycanın beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı təbliğ etməsidir. Beləliklə, ərazi baxımından kiçik olsa da, Azərbaycan dünyada cərəyan edən iqtisadi-ticari proseslərə aktiv müdaxilə imkanı əldə edir. Nəticə isə göz önündədir - bu gün Qərb, Türkiyə, Ərəb-İslam dünyası, Mərkəzi Asiya, Uzaq Şərq, Rusiya, Çin, hətta fərqli qitələrin təmsilçiləri Azərbaycanın apardığı uğurlu siyasətin heyranı, dəstəkçisi, tərəfdaşı kimi çıxış edir. Beləliklə, Azərbaycanın beynəlxalq aləmlə əlaqələri və əməkdaşlıq coğrafiyası genişlənir.

### Post-müharibə reallıqları: yeni nizamda yeni inkişaf mərhələsinə doğru...

... Və önə müasir qlobal siyasi tənzimləmələrin ən başlıca amili - lider amili çıxır. Bəli, müasir siyasi münasibətlər sistemi üçün ən vacib amil məhz LİDER amilidir. Bu gün LİDERLƏR öz dövlətinin, regionunun, hətta daha böyük coğrafiyaların inkişaf tendensiyasını müəyyənləşdirir, ona yön verir.

2025-ci ildə qlobal məkanda özünə yeni bir inkişaf düsturu formalaşdıran Cənubi Qafqazın da yeni inkişaf tendensiyasının yaranacağı gözlənilir. Özünün məntiqi nəticəsinə yetişmək üzrə olan bu siyasi-iqtisadi tendensiyanın ideya olaraq "dünyaya gəlişi", ətrafına regional inkişaf perspektivləri toplaması, etimad qazanması, uğurlu bir gələcək vəd etməsi mühüm bir trayektoriyadır - bu trayektoriyanın bəzən 2018-ci ildən, bəzən isə 2020-ci ilin əvvəlindən formalaşdırıldığı bildirilir. Amma daha geriyə boylansaq, bu yolun təməlinin daha da "uzaq-yaxın keçmişə" söykəndiyini görərik. Prezident İlham Əliyevin Azərbaycana qısa zamanda Cənubi Qafqazın lideri statusunu qazandırması, Mərkəzi Asiya-Cənubi Qafqaz-Kiçik Asiya iqtisadi tranzitini ən real və effektiv ticari yol kimi təqdim etməsi, nəhayət, 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirləri nəticəsində yeni təhlükəsizlik arxitekturası qurması Onun liderlik keyfiyyətlərinin yeni təqdimatının ən vacib komponentlərindəndir. Post-müharibə dövrünün reallıqları isə Azərbaycan liderinin ölkəsini yeni nizamda yeni inkişaf mərhələsinə doğru apardığını sübuta yetirir...

Dekabrın 17-də Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsi dünyada diqqətlə izlənilib. Müsahibədə səslənən fikirlər İlham Əliyevin Azərbaycan üçün formalaşdırdığı inkişaf yoluna növbəti dəfə işıq salır. Ölkəmizin qlobal dünyada qazandığı uğurların əsasında çoxtərəfli əməkdaşlığa verdiyi önəmin dayanması həqiqəti, mili maraqlara əsaslanmanın bir dövlət üçün yeganə istinad ünvanı olmasının vacibliyi, siyasi münasibətlərdə şəffaflığın və beynəlxalq hüququn kodekslərinin gözlənilməsinin mütləqliyi, tərəfdaş ölkələrə qarşı münasibətdə səmimi, dost, etimad yaradacaq bir mühitin formalaşdırılmasının əhəmiyyəti Prezident İlham Əliyevin müsahibəsində ən xırda cizgilərinə qədər özünü tamamlayır. Dövlət başçımızın fikirləri bu günün qlobal çəkişmələrinin həllini, sabahın sülh və əmin-amanlıq şəraitinin şərtlərini, gələcəyin birgəyaşayış qaydalarının düsturunu bütün detalları ilə açır. Ermənistan ilə münasibətlərin nizamlanması məsələsinə "Sülh təkcə saziş imzalamaq deyil, bu həm də ictimai konsensusdur" yanaşması sərgiləməklə Prezident İlham Əliyev bütün dünyaya bu kimi problemlərin həlli formulunu təqdim edir: sülh sazişinin davamlı olması üçün ictimai ortaq nöqtə müəyyənləşməlidir.

... Və ya Azərbaycan haqqında danışarkən ölkəmizin fərqləndirilməsini olduqca fenomenal bir ifadə ilə ortaya qoyur: "Azərbaycan həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur". Bu da Azərbaycanın dünyaya növbəti təqdimatı - müsahibəni araşdıran bütün qlobal beyin institutlarına növbəti bir mesajdır bu fikir: real situasiyada ən ideal mövqe barışdırıcı rolda çıxış etməkdir. Azərbaycan bunun ən bariz nümunəsidir...

### Bu günün və sabahın siyasi sabitlik düsturu: SÜLH!!!

... Və ya Prezident İlham Əliyev qısaca olaraq müasir dünyanın hazırki siyasi portretini çəkir: "İkinci Dünya müharibəsi nəticəsində yaranmış reallıqlar, müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər. Siyasi istəklərdə yenidən güc amili ön plana çıxır. Bunu daha tez dərk edən ölkələr bu gün özlərini daha təhlükəsiz hiss edə bilərlər. Halbuki, müasir dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz". Azərbaycan bu qlobal gərginlikdə özünün yerini olduqca uğurla müəyyənləşdirib - milli maraqlar müstəvisində, çoxtərəfli əməkdaşlıq çərçivəsində...

... Nəhayət Prezident İlham Əliyevin 2025-ci il üçün arzusu - "İlk ağlıma gələn, əlbəttə, sülhdür". Bu fraza dövlət başçımızın praqmatik və sülhpərvər kimliyini bütün dünyaya nümayiş etdirir. Bəli, məqsədimiz sülh, inkişaf və əməkdaşlıqdır - bizsəbrlə, təmkinlə, və ən əsası hər şeyi vaxtında edərək bunlara da nail oluruq və olacağıq...

*Pərviz SADAYOĞLU*

# Cənubi Qafqazı qarışdırmaq planı və iflası...

## Gürcüstan məsələsi göründüyündən daha genişdir

## Ermənistanı himayə edən güclər Tbilisidəki siyasi gərginliklərin də baş rolunu icra edir

Son həftələrdə Gürcüstanda baş verən hadisələrin mənşəyi və xarakteri sirr deyil. Ölkəsinin müstəqil xarici siyasət kursunu formalaşdırmağa çalışan, kənar müdaxilələrdən yaxasını qurtarmaq istəyən, ən əsası isə bir sıra güc mərkəzlərinin yaratdığı "agent şəbəkəsi"nin mövcud təhdidini aradan qaldırmaq üçün səfərbər olan hakimiyyətin addımları Qərb tərəfindən açıq sabotaj edilir. Xüsusilə, may ayında qəbul edilən "Xarici təsirin şəffaflığı haqqında" qanun və son parlament seçkilərindən sonra Baş nazir İrakli Kobaxidzenin "2028-ci ilin sonuna qədər Avropa İttifaqına üzvlük məsələsi ilə bağlı danışıqları dondurmağa qərar vermişik, Avropa İttifaqının qrantından imtina edirik" şəklində bəyanatı Tbilisini özünün planlarının tərkib hissəsi sayanların işini çətinə saldı.

Əslində, Gürcüstanda baş verənlər yalnız bu ölkənin sərhədləri daxilində cərəyan edən və ya edəcək hadisələrə, nəticələrə hesablanmayıb. Qərbin canfəşanlığının kökündə Tbilisiyə müdaxilə imkanlarını "itirməklə" yanaşı, Cənubi Qafqazdakı "varlığını" təhlükə qarşısında qoyma qorxusu da dayanır. Sirr deyil ki, Qərb, xüsusilə Bayden administrasiyası illərdir Gürcüstandan özünün "Şərq planları" üçün arxa bağça kimi istifadə etməyə çalışır. Nəticə etibari ilə baş verənlər, Qərbin bütövlükdə regiona nəzərən "planlaşdırdığı" məsələlərin daşa dəyməsini şərtləndirir...

### Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir...

Müşahidələr onu deməyə əsas verir ki, Tbilisidə qarışıqlıq mərhələsi arxada qaldı. Vəziyyət stabilləşir. Yeni dövrdə ölkənin yeni inkişaf mərhələsinə qədəm qoyması üçün addımlar planlaşdırılır. Ümumiyyətlə, son illərdə Cənubi Qafqazda baş verən proseslər beynəlxalq aləm tərəfindən diqqətlə izlənilir. Hələ müstəqilliyin ilk illərindən birgə qlobal layihələrə imza atan Azərbaycan - Gürcüstan əməkdaşlığı bölgənin siyasi-iqtisadi gücünü təmin edən amillər sırasında yer alır. İki ölkə arasında mühüm siyasi-iqtisadi əlaqələr mövcuddur, möhkəm siyasi dialoq mühiti var. Eləcə də Gürcüstanda yaşayan etnik azərbaycanlılar iki ölkə arasında mühüm birləşmə telləri formalaşdırıb. Bu mənada, Gürcüstanda sabitliyin bərəqrar olması bölgə üçün yeni siyasi-iqtisadi reallıqlar yaradan Azərbaycan üçün də maraqlıdır. Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirib ki, Gürcüstan bizim üçün çox mühüm



tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır: "Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin".

### Tramp USAID-i qadağan edə bilər...

Vurğulandığı kimi, arxada qalmış etirazların mahiyyətinə nəzər saldıqda bir fakt bəlli olur ki, illərlə Qərbin Gürcüstanda formalaşdırdığı şəbəkə məhz sifarişlə milli maraqlara qarşı çıxış edən kütləyə çevrilib. Bu işdə ən çox fəallıq göstərənlər isə Qərb tərəfindən maliyyələşdirilən QHT-lər, siyasi ruporlar, "media kalonu" idi. Qərb məhz onların əli ilə öz gündəliyini Gürcüstan hakimiyyətinə qəbul etdirməyi düşünürdü. Proses isə onu göstərirdi ki, hətta Qərb vəziyyətin vətəndaş müharibəsi şəklini almasında belə maraqlıdır. Çünki sifarişlə işləyən QHT-çilərdən ibarət "dəstələr" üçün Gürcüstanın milli maraqları heç bir məna kəsb etmirdi. Prezident İlham Əliyev bu məqama diqqət çəkərək bildirib ki, Gürcüstanda Qərbdən maliyyələşən minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, on minlərlə, hətta daha çoxdur: "Biz bilirik ki, bu, nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, amma biz bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir".

Həqiqətən də ölkəmizdə də bir zamanlar bu kimi proseslərin şahidi olmuşuq - Qərbin maliyyəsi ilə ölkədə destabillik yaratmağa çalışan, milli maraqlara qarşı çıxanlar sifariş əsasında direktivlər yerinə yetirməklə məşğul idilər. Azərbaycan dövləti milli maraqlara təhdid yaradan bu amillərin aradan qaldırılması istiqamətində əsaslı işlər gördü. Bayden adminstrasiyasının konkret bölgələrə münasibətdə xarici siyasət kursunun əlaqələndiricisi kimi çıxış edən USAID və onun kimi "yumşaq güc" prinsipinə əsaslanan maliyyələşdirici təşkilatlar isə bu məsələdə "həlqə" rolunu oynayırdılar. Zaman-zaman Azərbaycanda da qeyri-adekvat fəaliyyətlə "yadda qalan" USAID və onun rəhbəri Samanta Pauel öz işlərini "qlobal vətəndaş cəmiyyəti şəbəkəsi", "demokratiyanın inkişafı uğrunda şəbəkə", "azad informasiya resursları şəbəkəsi" adı altında kamuflyaj etməyə çalışırdı. Bayden adminstrasiyasından "miras" qalan USAID artıq bütün dünyada ifşa edilir - bu həm də ABŞ-ın dölət olaraq imicinə mühüm zərbədir. Bu baxımdan, yaxın gələcəkdə Vaşingtonun adına mənfi çalarlar qatan bu təşkilatın ləğvi də aktuallaşa bilər. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, yardım asılılığı yaratmamalıdır. "Ona görə də Bayden administrasiyası tarixdə, o cümlədən nə ilə yadda qalacaq? Bir çox məsələ, amma o cümlədən bir göstərici ilə. Bu, yaxadan asılmaqdır. Biz sizə kömək etmək istəyirik. Biz isə deyirik: sağ olun, ehtiyac yoxdur. Onlar təkid edirlər. Bax, onların USAID adlı strukturu var. Yardım etmək istəyir, amma nədənsə bizə lazım olan məsələdə deyil. Bizdə hələ qadağan edilməyib, amma zənnimcə, Tramp onu qadağan edə bilər", - deyən dövlət başçısı əlavə edib ki, Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz: "Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin? Belə ki, onlar "Amerikanın səsi" və "Azadlıq radiosu" kimi ələltı resursları vasitəsilə gecə-gündüz xalqımıza, ölkəmizə qara yaxırlar, Ermənistan üzərində qələbəmizə kölgə salırlar. Ona görə də mənə elə gəlir ki, bunun qaydaya salınması Gürcüstanda müəyyən vaxt ərzində nəzərdən qaçırılıb, bunu etdikdə isə, necə deyərlər, qatar bir az getmişdi. Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir".

### Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir...

Nəticə etibari ilə Qərbin Gürcüstan üçün planlaşdırdığı destruktivlik yalnız bu ölkəni deyil, bütün regionu əhatə etməli idi. Amma başda Bayden administrasiyası və Makron hakimiyyəti olmaqla bu "arzular" da puç oldu. 2014-cü ildə Ukrayna üçün "yazılmış" ssenarini Tbilisidə təkrarlamağa çalışanlar iflasa uğradı. Göründüyü kimi, Cənubi Qafqazı qarışdırmaq planı bir mərkəzdən idarə olunur - Ermənistanı himayə edən güclər Gürcüstanda da siyasi gərginliklərin baş rolunu icra edir. Prezident İlham Əliyev vurğulayıb ki, Gürcüstan məsələsi göründüyündən daha genişdir: "Zənnimcə, bu səbəbdən nəzərdə tuturam ki, adətən irəliyə sanksiyaları vərdişə çevirmiş ölkələri verirlər. Əgər belə demək mümkündürsə, bu, Qafqaz uğrunda döyüşdür. Ermənistanın haraya getdiyi aydındır. O, mahiyyətcə KTMT-dən de-fakto çıxıb. Bizim yoxlanılmış məlumatlarımıza görə, onların deyure çıxmamasının səbəbi hələ Dövlət Departamentindən təlimat almamalarıdır. Bunu alan kimi, onlar çıxacaqlar. Azərbaycan müstəqil aktordur və kifayət qədər ixtisaslaşıb, özünü müdafiə edə bilir. Ona görə də Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir. O, necə olacaq? O, bizim ənənəvi Qafqaz dəyərlərinə əsaslanacaq".

*Pərviz SADAYOĞLU*

# Erməni lobbisinin yuvası - Avropa Parlamenti

## Təşkilatın ölkəmizə qarşı qəbul etdiyi növbəti qətnamə də obyektivlikdən tam uzaqdır

**Avropa Parlamenti dekabrın 19-da Azərbaycana qarşı növbəti qərəzli qətnamə qəbul edib. Qətnamədə adəti üzrə saxta məlumatlara və rəqəmlərə istinad edilir, reallıqlar təhrif olunur, qanunların pozulmasına gətirib çıxarmış cinayət əməllərinin təhqiqatının siyasiləşdirilməsinə cəhd göstərilir. Təşkilat "ənənəsinə" sadiq qalaraq guya Azərbaycanda insan hüquqlarının pozulduğunu, mediaya və vətəndaş cəmiyyətinə təzyiqlər göstərildiyini, ölkədə "siyasi məhbuslar" olduğunu iddia edir.**

### Milli Məclis: Bu qətnamənin iftira və böhtan kampaniyasının tərkib hissəsi olduğu şübhə doğurmur



Sözügedən qətnaməyə Azərbaycanın Milli Məclisi münasibət bildirib. Qeyd olunub ki, Azərbaycanda bütün əsas hüquq və azadlıqların tam şəkildə təmin olunduğu, o cümlədən qanunvericiliyin tələblərinə riayət edilməsinin zərurət olduğu bir gerçəklikdir. Belə olan halda, Avropa Parlamentinin ölkəmizin daxili işlərinə müdaxilə edən bu sənədi başqa məqsədləri ön plana çıxarır. Milli Məclis hesab edir ki, bu qətnamənin Azərbaycana qarşı xeyli müddətdir davam edən iftira və böhtan kampaniyasının tərkib hissəsi olduğu şübhə doğurmur. Xüsusilə, süni şəkildə yaradılmış bütün əngəlləri dəf edərək, iqlim dəyişmələri ilə mübarizədə dünya ictimaiyyətinin səylərini birləşdirməyə nail olan ölkəmizin qazandığı uğurlar fonunda bu kampaniyanın müxtəlif "elementlər"lə zənginləşdirilərək daha da genişləndiriləcəyi gözlənilən idi. Bu mənada, azərbaycanofob, türkofob və islamofob qüvvələrin cəmləşdiyi Avropa Parlamenti də bu kampaniyaya mütləq öz "töhfə"sini verməli idi. Qətnamənin nə dərəcədə qərəzli olduğunu anlamaq üçün təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ölkəmizin ərazisində insanlıq əleyhinə cinayət törətməkdə təqsirləndirilən keçmiş separatçı rejimin nümayəndələri və terrorçular bu sənəddə "erməni hərbi əsirlər" kimi təqdim olunur.

**Milli Məclis: "Bu cür qətnamələr ölkəmizə qarşı irəli sürülən gizli gündəliklərin, reallaşdırılmağa çalışılan siyasi maraqların əsl mahiyyətini tam şəkildə ortaya qoyur. Avropa Parlamentində aparılan müzakirələr və qəbul olunan sənədlər digər ölkələrin daxili işlərinə kobud müdaxilə alətinə çevrilib. Lakin bu qurum özünün qeyri-obyektiv mövqeyinin və saxta məlumatları rəsmiləşdirən qətnamələrinin artıq heç bir maraq doğurmadığını yaxşıca dərk etməlidir"**

### Ölkələrin daxili işlərinə kobud müdaxilə...

"Müşahidələr onu göstərir ki, Fransa, Ermənistan və erməni lobbisinin sifarişlərinin dərhal icrası bu gün Avropa Parlamentinin siyasi simasının xarakterik cizgisidir. Nəticə etibarilə bu cür qətnamələr ölkəmizə qarşı irəli sürülən gizli gündəliklərin, reallaşdırılmağa çalışılan siyasi maraqların əsl mahiyyətini tam şəkildə ortaya qoyur. Avropa Parlamentində aparılan müzakirələr və qəbul olunan sənədlər digər ölkələrin daxili işlərinə kobud müdaxilə alətinə çevrilib. Lakin bu qurum özünün qeyri-obyektiv mövqeyinin və saxta məlumatları rəsmiləşdirən qətnamələrinin artıq heç bir maraq doğurmadığını yaxşıca dərk etməlidir",-deyə açıqlamada vurğulanıb.

Milli Məclis Avropa Parlamentinin qeyri-obyektiv və qərəzli qətnaməsini qəti şəkildə rədd edərək bəyan edib ki, ciddi problemlərlə üzləşmiş Avropa qitəsinin bu gün öz qanunvericilərinin həmin problemlərin həllinə diqqət yönəltməsinə daha çox ehtiyacı var.

Ümumiyyətlə, bu qətnamə Avropa Parlamentinin ölkəmizə qarşı ilk qərəzli sənədi deyil. Müstəqillik dövrümüzdə təşkilat dəfələrlə bu tipli sənədlər qəbul edib. Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi illərdə də Avropa Parlamenti təcavüzkarın vəkili və ruporu qismində özünü təsdiqləyib. Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə Avropa Parlamenti bu ölkənin işğalçılıq siyasətini pisləyən qətnamələr qəbul etməyib, əksinə "insan hüquqları" bəhanəsi ilə Azərbaycana qarşı sənədlər qəbul edib.



### Avropa Parlamenti korrupsiya girdabında...

Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra isə təşkilat ölkəmizə qarşı düşmən mövqeyi sərgiləyir. 44 günlük Vətən müharibəsindən sonra Avropa Parlamentində ölkəmizə qarşı qəbul edən qətnamələrin, belə demək mümkünsə, sayı-hesabı yoxdur. Bundan əvvəlki qətnamə isə oktyabr ayında qəbul olunmuşdu. Həmin qətnamədə də guya ölkəmizdə insan hüquqlarının pozulması, media azadlığının və vətəndaş cəmiyyətinin fəaliyyətinin məhdudlaşdırılması iddia olunurdu. Ondan əvəlki qətnamələrdə həm də, Ermənistana və hərbi cinayətkarlara "sonsuz məhəbbət" ifadə olunurdu. Yəni, bu təşkilat erməni lobbisinin yuvasıdır.

Əslində, ötən ilin oktyabrında bu qurumda işğalçı Ermənistanın baş nazirinin yüksək səviyyədə qarşılanması əsl gerçəklikləri ortaya qoymuşdu. Hansı ki, Paşinyan məhz 44 günlük müharibə zamanı ermənilər tərəfindən Gəncədə törədilmiş terror hadisəsinin ildönümündə - 17 oktyabr tarixində çıxış etmişdi. Yəqin ki, bu, təsadüf deyil, Avropa Parlamenti ilə Ermənistanın düşünülmüş addımı idi. Bu faktlar göstərir ki, Avropa Parlamenti bu müharibə cinayətlərini törətmiş Ermənistanla həmrəydir.

Onu da nəzərə almaq lazımdır ki, Avropa Parlamentinin özü korrupsiya yuvasına çevrilib. İndiyə qədər dəfələrlə təşkilatın rəhbərliyində korrupsiya faktlarının aşkara çıxarılması bunu təsdiqləyir. Bu da Avropa Parlamentinin sifarişlər əsasında qətnamələr hazırlamasının bariz nümunəsi kimi qiymətləndirilə bilər. İkili standartlar, selektiv yanaşma, reallıqları gözə almamaq və işğalçıya dəstək artıq çoxdan bu təşkilatın fəaliyyət prinsipinə çevrilib. Bütün bunların fonunda qəbul edilən qətnamənin heç bir hüquqi qüvvəsi yoxdur.

*Nardar BAYRAMLI*

# Namərdliyi kim edir?

## ABŞ-ın ölkəmizdəki səfirliyi yanlış mövqedədir

Hazırda beynəlxalq münasibətlər sistemində dərin böhran mövcuddur. Bu gün dünyada beynəlxalq nizam pozulub, beynəlxalq hüquq normaları işləmir. Belə olan halda bir sıra hegemon dövlətlər digər xalqlara münasibətdə öz maraqları baxımından yanaşırlar. Qərbin və onun təsir dairəsində olan beynəlxalq təşkilatların geosiyasi ambisiyalara söykənən maraqları da dünyada ciddi təhdidlər yaradır. Həmin dairələrin yanaşmasında özünü göstərən başlıca tendensiyalardan biri də ikili standartlara əsaslanan mövqedir. Bu baxımdan, bəzi Qərb dövlətləri, xüsusilə ABŞ "öndə" gedir.

Məlumdur ki, ərazi bütövlüyünü və suverenliyini öz gücünə bərpa edən Azərbaycan dövləti Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Bu amil, həm də dövlətimizin beynəlxalq münasibətlər sistemində nüfuzunu və mövqelərini gücləndirir. Təəssüf doğuran hal odur ki, Azərbaycan BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra ABŞ da daxil olmaqla bir sıra Qərb ölkələri ölkəmizə qarşı qərəzli mövqe sərgiləyir.



### XİN: Keçmişdəki səhvlərdən dərs çıxarmaq gələcək uğurlu addımlar üçün əsas şərtdir

Ötən il Qarabağda antiterror tədbirləri nəticəsində erməni separatizminin kökü kəsildikdən sonra ABŞ tərəfindən ölkəmizə qarşı ədalətsiz addımlar daha da artıb. Həm Konqres, həm də Dövlət Departamenti səviyyəsində verilən bəyanatlar, keçirilən dinləmələr və s. bunun göstəricisidir. Eləcə də Azərbaycanda keçirilən COP29 ərəfəsində və sonra da əsassız hücumlar olub. Bir neçə gün öncə isə ABŞ Dövlət Departamentinin rəsmi şəxsləri tərəfindən guya mediaya və vətəndaş cəmiyyətinə təzyiqlərlə bağlı fikirlər səsləndirilib. Birləşmiş Ştatların bu yanlış mövqeyi ölkəmizdə etirazla qarşılanır. Müxtəlif siyasətçilər, rəsmi qurumlar, media orqanları tərəfindən tənqidlər səsləndirilir. Lakin ABŞ-ın ölkəmizdəki səfirliyi yenə də əsassız yanaşma ortaya qoyaraq hansısa "namərdlik"dən danışıb.

Lakin ABŞ səfirliyinə cavab özünü çox gözlətməyib. Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib ki, əsl "namərdlik" ABŞ-nin "məşhur, dürüst və qərəzsiz" kimi təqdim edilən qurumları tərəfindən yalanın həqiqət kimi göstərilməsi və sırf geosiyasi məqsədlər üçün insan hüquqlarından bəhanə kimi istifadə olunmasıdır. O qeyd edib ki, özünü beynəlxalq səviyyədə insan hüquqlarının müdafiəçisi kimi qələmə verən və bir çox insan hüquqlarını heçə sayan ABŞ tərəfindən Azərbaycana qarşı əsassız iddialar ikili standartların bariz nümunəsidir: "Tənqid təzyiq kimi o zaman effektli ola bilər ki, tənqid edənin niyyəti saf, əxlaqı isə üstün olsun. Keçmişdəki səhvlərdən dərs çıxarmaq gələcək uğurlu addımlar üçün əsas şərtdir".

### İcma: İnsan hüquqlarından siyasi məqsədlər üçün sui-istifadə olunmasına son verməyi tələb edirik

Qərbi Azərbaycan İcması da ABŞ-ın Azərbaycandakı səfirliyinin ölkəmizin daxili işlərinə qarışan və böhtan dolu bəyanatını sərt şəkildə qınayıb. Azərbaycana qarşı şər kampaniyasını ölkəmizdə guya söz azadlığı sahəsində olan problemlərin olması ilə izah etməyə cəhd edən ABŞ səfirliyinin diqqətinə çatdırılıb ki, bu təzyiqlərin əsl səbəbi Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir.

İcmanın bəyanatında qeyd olunub: "ABŞ-ın hazırkı administrasiyası azərbaycanlılara qarşı etnik və dini əsaslarla ayrı-seçkilik siyasəti aparmaqla, ölkələrin ərazi bütövlüyü və suverenliyinə selektiv yanaşmaqla, Ermənistanın deportasiya, etnik təmizləmə, təcavüz və işğal siyasətinə dəstək verməklə insan hüquqlarından danışmaq haqqını itirib. Biz Qərbi Azərbaycan İcması olaraq bu ədalətsiz yanaşmanı, ayrı-seçkiliyi daim hiss edirik. Bundan əlavə, ABŞ səfirliyinin özlərinə gəldikdə nəinki azacıq tənqidə, hətta adi suala belə aqressiv ritorika ilə cavab verməsi onların yeri gəldi-gəlmədi pafosla danışdıqları "söz azadlığı"na, "fikir müxtəlifliyi"nə olan namərdliyini göstərir".

Qərbi Azərbaycan İcması ABŞ-ın hazırkı administrasiyasından ölkəmizin daxili işlərinə müdaxiləsinə, xalqımıza qarşı ayrı-seçkiliyinə və insan hüquqlarından siyasi məqsədlər üçün sui-istifadəsinə son verməyi tələb edib.

*Nardar BAYRAMLI*

# İcmadan Paşinyana cavab...

## Ermənistan sülh müqaviləsini imzalamaqda maraqlı deyil

Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsində 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində Ermənistandan təxminən 300 min azərbaycanlının deportasiya olunduğunu bildirib. Qərbi Azərbaycan İcması doğma yurdlarına qayıtmaq, reinteqrasiya üçün şəraitin yaradılmasına dair Ermənistan hakimiyyətinə rəsmi müraciət edib. İki ölkənin cəmiyyətləri arasında qarşılıqlı etimadın yaradılması üçün Qərbi azərbaycanlıların qayıdışı mühüm şərtdir. Bu amil cəmiyyətlər arasında gerçək sülh mühitinin formalaşmasında ictimai konsensusun əhəmiyyətini ifadə edir. Prezident İlham Əliyevin sözügedən müsahibədə dediyi kimi, bu, sülh üçün ən yaxşı ictimai ab-hava yaradacaq. Çünki sülh təkcə sülh sazişini imzalamaq demək deyil, bu, həm də ictimai konsensusdur.

### Absurd iddialar...

Lakin rəsmi İrəvan Qərbi Azərbaycan İcmasının məlum müraciətinə nəinki cavab verməyib, əksinə məsələni yanlış istiqamətə yönəldir. Belə ki, Nikol Paşinyan "Armenpress"ə müsahibəsində azərbaycanlıların doğma yurdlarına qayıdışını Ermənistan ərazilərinin "işğalı" kimi səciyyələndirməyə çalışıb. O, bu fikrini rəsmi Bakının ATƏT-in Minsk qrupunun ləğv olunması haqda təklifini şərh edərkən deyib: "Biz bu mövqeyi başa düşürük ki, əgər münaqişə yoxdursa, münaqişə ilə məşğul olan formatın olması nə deməkdir? Amma biz həm də əmin olmaq istəyirik ki, Azərbaycan da məsələyə eyni məntiqlə yanaşır. Tutaq ki, məsələn, "Qərbi Azərbaycan" məsələsinin inkişafı Ermənistan Respublikasının ərazisinə qarşı təcavüzkar siyasət həyata keçirməkdən ibarət deyil". O, iddia edib ki, Bakı guya "Qərbi Azərbaycan" ifadəsi ilə öz konstitusiyasında Ermənistana qarşı ərazi iddialarını əsaslandırmaq istəyir.

Əlbəttə, Paşinyanın bu iddiaları tamamilə absurddur. Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması bəyanat yayıb. Bildirilib ki, Nikol Paşinyanın müsahibəsində Ermənistan və Azərbaycan arasındakı ikitərəfli münasibətlərə və Qərbi Azərbaycan məsələsinə dair bir sıra fikirləri zərərli və həqiqətə uyğun deyil. Bəyanatda qedy edilib ki, erməni baş nazirin Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdış məsələsini ərazi iddiası kimi təqdim etməyə çalışması və "Qərbi Azərbaycan" ifadəsinə irad tutması tamamilə əsassızdır. Vurğulamaq lazımdır ki, azərbaycanlıların əsrlərlə yaşadığı və Ermənistan tərəfindən total etnik təmizləməyə məruz qaldığı keçmiş İrəvan xanlığı, Zəngəzur və digər bölgələri əhatə edən "Qərbi Azərbaycan" ifadəsi həmin məkanda yaşamış azərbaycanlıların özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdikləri və tarixi həqiqətlərə söykənən bir termindir.

Qərbi Azərbaycan İcması qayıdış hədəfinə sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət çərçivəsində nail olmaq üçün çalışdığını bəyan edib. Bu baxımdan, İcmanın Ermənistan hökumətinə rəsmi şəkildə müraciət edərək dialoq təklif etməsi xüsusilə qeyd edilməlidir. Ermənistan hökuməti tərəfindən etnik təmizləmə, ayrı-seçkilik, mülkiyyət və digər hüquqlarının pozulmasına məruz qalmış Qərbi azərbaycanlıların ilk addımı ataraq dialoqa təşəbbüs etməsi onların barışıq və sülh yolunu tutduğunu göstərir. Ermənistan hökumətinin İcmanın dialoq təklifini cavabsız qoyması isə təəssüf doğurur.

### Rəsmi İrəvan beynəlxalq ictimaiyyəti də aldatmaq istəyir

"Apardığı silahlanma siyasətini suveren seçim kimi izah etməyə çalışan N.Paşinyana xatırlatmaq istərdik ki, revanşist və radikal ideologiyanın dərin kök saldığı Ermənistan hərbi güclə məsuliyyətlə davranmağı bacarmır. Bu və Ermənistanın aqressiv keçmişi nəzərə alınmaqla onun sərbəst şəkildə silahlanmasına yol vermək olmaz. N.Paşinyanın Ermənistan konstitusiyasında əks olunmuş ərazi iddiasını aradan qaldırmaqdan imtina etməsi, hələ bu azmış kimi guya Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiasının yer almasını bildirməsi onun sülh müqaviləsini imzalamaqda maraqlı olmadığını göstərir",-deyə bəyanatda vurğulanıb.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən qayıdış hüququna hörmət etməyi, silahlanma siyasətinə dərhal son verməyi və ərazi iddiasını əsas sənədlərindən çıxarmağı tələb edib.

Lakin Ermənistan rəhbərliyinin azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri qayıtması hüququnu inkar etməsi, yüz minlərlə azərbaycanlının daxil olduğu Qərbi Azərbaycan İcmasının dialoq təklifinə qarşı çıxması qəbulolunmazdır. Ermənistan bu İcmanın fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışması beynəlxalq ictimaiyyəti də aldatmaq məqsədi daşıyır. Nəzərə almaq lazımdır ki, İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın Qərbi Azərbaycan İcmasının fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

*Nardar BAYRAMLI*

# Rusiya-Ukrayna müharibəsi: Ortaq kompromislər mümkündürmü?

## Yaxın Şərqlə bağlı müzakirələrdə Ərdoğanla təmaslara ciddi ehtiyac var

Rusiya Prezidenti Vladimir Putin 2001-ci ildən bəri hər il böyük mətbuat konfransları və "Birbaşa xətlər" keçirir. Dövlət başçısı bu il də ənənəsinə sadiq qalıb. Dekabrın 19-da Moskvada "Qostinıy Dvor" sərgi mərkəzində jurnalistlərlə böyük mətbuat konfransı və ölkə vətəndaşları ilə "Vladimir Putinlə ilin yekunları" "Birbaşa xətt" baş tutub. Mətbuat konfransında rusiyalı və xarici jurnalistlər iştirak ediblər.

Tədbirdə bu il ilk dəfə olaraq sualların toplanması və işlənməsi üçün süni intellektdən istifadə edilib. Xüsusi hərbi əməliyyatla bağlı məsələlər və cəbhələrdə vəziyyətin inkişaf perspektivləri rusiyalıların müraciətlərində qaldırdıqları prioritet mövzular sırasında olub. Eyni zamanda, V.Putin indiki geosiyasi reallıqlar fonunda Rusiyanın regional siyasətinin prioritetlərini, ölkəsinin Yaxın Şərqdə, xüsusilə də Suriyada baş verən son hadisələrə münasibətini diqqətə çatdırıb.

### Putin: Rusiya Ukrayna ilə danışıqlara hazırdır

Artıq 1032-ci gününə daxil olan Rusiya-Ukrayna müharibəsi hazırda həm tərəflər, həm də bütün dünya üçün qlobal səciyyə daşıyan əsas geosiyasi məsələlərdən biri qismində çıxış edir. Müharibənin arealı və təsirləri genişlənməkdədir. Digər dövlətlərin, o cümlədən də Şimali Atlantika Alyansının (NATO) birbaşa müharibəyə cəlb olunması ehtimalları hər ötən gün daha da artır. Ən dəhşətlisi isə odur ki, nüvə düyməsinin basılması riskləri də tam realdır.

Bu kimi reallıqlar fonunda deyə bilərik ki, bəşəriyyətin gələcəyi, dünyanın yeni nizamının qurulması böyük dərəcədə Rusiya-Ukrayna müharibəsinin nəticələrindən və yaxud hans mərhələdə yekunlaşacağından çox asılıdır. Təsadüfi deyildir ki, mətbuat konfransında Putinə müharibənin perspektivləri ilə bağlı çoxsaylı suallar ünvanlanıb. "Rusiya Ukrayna ilə danışıqlara və kompromislərə hazırdır", - deyə dövlət başçısı vurğulayıb. O qeyd edib ki, siyasət kompromis sənətidir. Rusiya danışıqlara və kompromislərə hazırdır, lakin qarşı tərəf danışıqlardan imtina edib.

Putin, həmçinin vurğulayıb ki, Rusiya İstanbul razılaşmaları əsasında və "yerdə" vəziyyəti nəzərə alaraq Ukrayna ilə danışıqlara hazırdır. Rusiya Prezidenti qeyd edib ki, Zelenski "seçkilərə gedib legitimlik qazanarsa" onunla danışıqlar mümkündür. Rusiya sülh sənədlərini yalnız Ukraynanın qanuni rəhbəri ilə imzalayacaq.

Bəs Rusiya sülh üçün hansı kompromislərə gedə bilər? Putin detalları açıqlamayıb. Məsələ burasındadır ki, Ukrayna da kompromislərdən danışır, ancaq güzəştlərin ərazi bütövlüyü və suverenlik prinsipi əsasında mümkün olduğunu da bəyan edir və özü üçün NATO çətiri altında təhlükəsizlik təminatı istəyir. Bu da indiki halda qarşı tərəf üçün qəbuledilməz şərtlər kimi görünür. Belə olan halda tərəflər ortaq kompromislərə necə nail olacaqlar?

### Rusiyanın Suriyada mövcudluğu

Cəmi iki həftə ərzində Bəşər Əsədin devrilməsi ilə sonuclanan hadisələr fonunda Rusiyanın bundan sonra Suriyada qalıb-qalmayacağı da mətbuat konfransında əsas müzakirə mövzularından biri olub. Xatırladaq ki, Rusiyanın Suriyada iki hərbi obyekti var - Rusiya Hərbi Dəniz Qüvvələrinin Tartusdakı logistika mərkəzi və Latakiyadan təxminən 20 km cənub-şərqdə yerləşən Xmeymim Aerokosmik Qüvvələri bazası. Tartusdakı baza SSRİ dövründə 1971-ci ildə ikitərəfli razılaşma əsasında təsis olunub. Rusiya Aerokosmik Qüvvələrinin Xmeymimdəki aviasiya qrupu isə 2015-ci il sentyabrın 30-da İŞİD terror təşkilatı ilə mübarizədə Suriya ordusuna dəstək məqsədilə hərbi əməliyyat keçirmək üçün yaradılıb.

Sualları cavablandıran Putin hərbi bazaların Suriyada qalmasının perspektivlərinə konkretlik gətirməyib və detallar barədə geniş danışmayıb. Moskva anons edir ki, bu məsələ Dəməşqlə danışıqlar prosesində nizamlanacaq. Öz növbəsində dövlət başçısı qeyd edib ki, Suriyada baş verənləri Rusiyanın məğlubiyyəti hesab etmir. "Biz orada terror anklavı yaranmaması üçün gəldik, məqsədlərimizə çatdıq", - deyə o vurğulayıb.

Putin əlavə edib ki, Rusiya Suriyadakı bütün qruplaşmalarla münasibət saxlayır. Bu qüvvələrin böyük əksəriyyəti ölkədəki Rusiya hərbi bazalarının saxlamağı təklif edir. Dövət başçısı Suriyanın keçmiş prezidenti Əsəd Moskvaya gəldikdən sonra onunla hələ görüşmədiyini, lakin görüşəcəyini bildirib.




### Regional və qlobal səviyyədə Türkiyənin artan rolu

Mətbuat konfransında Putinin "Prezident Ərdoğanla daim təmasdayıq. Biz təbii ki, regiondakı, Yaxın Şərqdəki vəziyyəti müzakirə etmişik" fikrini səsləndirməsi xüsusi aktuallıq daşıyır. Suriyada və bütövlükdə Yaxın Şərqdə böyük geosiyasi və geoiqtisadi maraqları olan Rusiyanın dövlət başçısının baş verənlər fonunda Ərdoğanla daimi təmaslar qurması və müzakirələr aparması Ankaranın qlobal güc mərkəzi və əsas regional aktorlardan biri qismində qəbul edildiyini bir daha təsdiqləyir. Etiraf olunur ki, Qardaş Türkiyə Suriyada baş verən son proseslərdə də müsbət rol oynayıb.

Yaxın Şərq məsələsinə toxunan Putin qeyd edib ki, Fələstin problemini onun yaranmasına gətirib çıxaran səbəbləri aradan qaldırmaqla - İsrail və Fələstin dövlətləri yaratmaqla həll etmək olar.

O, Suriyadakı vəziyyətlə bağlı danışarkən vurğulayıb ki, Türkiyə cənub sərhədlərində təhlükəsizliyini təmin etmək, qaçqınların geri qayıtması üçün şərait yaratmaq və "kürd qüvvələrini sərhəddən uzaqlaşdırmaq" üçün əlindən gələni edir. "Bütün bunlar yəqin ki, mümkündür və ola bilsin ki, bu, müəyyən dərəcədə edilib", - deyə Rusiya Prezidenti bildirib.

"Türkiyənin Kürdüstan Fəhlə Partiyası ilə onilliklərdən bəri problemi var. Ümid edirəm ki, heç bir gərginlik olmayacaq", - deyə Rusiya Prezidenti vurğulayıb və əlavə edib ki, bu problemi Suriyanın yeni hakimiyyət orqanları ilə həll etmək lazımdır.

### Trampla görüş baş tutacaqmı?

Hazırda bütün dünyanın nəzərləri ABŞ-nin yeni seçilən Prezidenti Donald Trampa yönəlib. O, hələ seçkiqabağı təşviqat zamanı bəyan etmişdi ki, prezident seçiləcəyi təqdirdə Rusiya-Ukrayna müharibəsini tezliklə bitirəcək. Verilən məlumatlardan aydın olur ki, Tramp verdiyi vədi yerinə yetirmək istiqamətində müəyyən çalışmalara başlayıb. Hərçənd ki, bunun asan başa gələcəyini düşünmək də sadəlövhlük olardı.

Moskvanın ABŞ-nin yeni Prezidentinin "müharibəni bitirəcəyəm" məzmunlu vədinə yanaşması bütövlükdə pozitivdir.

Öz növbəsində Putin ABŞ-nin yeni seçilmiş Prezidenti ilə görüşə hazır olduğunu bəyan edib. "Mən onunla nə vaxt görüşəcəyimizi bilmirəm. Çünki o, bu barədə heç nə demir. Mən onunla dörd ildən çoxdur, ümumiyyətlə, danışmamışam. Əlbəttə, istənilən vaxt onunla görüşməyə və danışmağa hazıram", - deyə Putin qeyd edib.

*Mübariz ABDULLAYEV*

# Yeni ilə yeni siyasi böhranla

## Almaniya Aİ-dən çıxır?

Bu günlərdə Avropa İttifaqı (Aİ) üçün heç də xoş olmayan daha bir xəbər Almaniyadan gəlib. "Almaniya üçün alternativ" Partiyası ölkənin Avropa İttifaqından çıxmasını təklif edib.

"Bloomberg" agentliyinin məlumatına görə, "Almaniya üçün alternativ" Partiyasının kansler vəzifəsinə namizədi Alisa Vaydel ölkəsinin bürokratiyaya deyil, dövlətlərarası sərbəst ticarətə ehtiyacı olduğunu vurğulayıb. "Avropa İttifaqının sosialist siyasəti regiondakı bazar mexanizmini məhv edib", - deyə siyasətçi bildirib.

Almaniyanın avtomobil sənayesini məhv etdiyinə görə Brüsseli sərt tənqid edən Alisa Vaydel Avropa İttifaqının azad ticarət zonasına çevrilməsini təklif edib. "Bizə nə etdiyini bilməyən və Avropa İttifaqındakı təməlimizi dağıdan bürokratlara ehtiyacımız yoxdur", - deyə o əlavə edib.

Bir müddət öncə "Almaniya üçün alternativ" Partiyasının həmsədri Tino Krupalla Şimali Atlantika Alyansının bütün Avropa dövlətlərinin, o cümlədən Rusiyanın maraqlarına hörmət etməyəcəyi təqdirdə Berlinin NATO-dan çıxmaq barədə düşünməli olduğunu deyib. O, həmçinin Avropanı ABŞ-ın maraqlarına xidmət etməkdə günahlandırıb.

### Avropa İttifaqında iqtisadi və siyasi tənəzzül dönəmi

Bir vaxtlar "qoca qitə"nin sarsılmaz iqtisadi və siyasi birliyinin rəmzi kimi qəbul olunan Avropa İttifaqı son illərdə özünün heç də yaxşı dönəmlərini yaşamır. Xüsusilə də Böyük Britaniyanın "BREXİT" qərarından sonra Aİ daxilində həmrəyliyin yeni bağlarla möhkəmləndirilməsindən daha çox mərkəzdənqaçma, parçalanma meylləri müşahidə edilir. Birliyin aparıcı dövlətləri arasında getdikcə artan ziddiyyətlər fonunda "Aİ-nin gələcəyi sual altındadır" fikri daha tez-tez səslənir.

Almaniyada və bəzi digər dövlətlərdə Avropa İttifaqının sıralarını tərk etməyin artıq zərurətə çevrildiyinin gündəmə gətirilməsi qurum daxilində yaşanan siyasi və iqtisadi tənəzzül fonunda baş verir. Vəziyyət getdikcə pisə doğru dəyişir və geridönüş mümkünsüz görünür.

Hazırda Avropa İttifaqı ölkələri ciddi idarəetmə böhranı ilə üzləşib. Cari ilin yayında Avropa Parlamentinə keçirilən seçkilərin nəticələri təsdiqlədi ki, ayrı-ayrı ölkələrdə mövcud hakimiyyətlərə inam hədsiz dərəcədə aşağıdır. Bunu Avropa İttifaqında aparıcı mövqeyə malik olan Fransanın timsalında aydın şəkildə izləmək mümkündür. Makronun səriştəsiz idarəçiliyi ölkəni tarixinin ən pis dönəmi ilə üz-üzə qoyub. Yelisey Sarayı artıq bir neçə aydır ki, dərin hökumət böhranından çıxa bilmir. Bütövlükdə, Aİ-yə üzv ölkələrin hökumətləri seçicilər qarşısında öhdəliklərini yerinə yetirmirlər və onsuz da asılı vəziyyətdə olduqları ABŞ-dan, Çindən daha da geri qalmaq riski ilə üzləşirlər. Paralel olaraq, artan borclanma xərcləri və ləng iqtisadi artım hətta aparıcı dövlətlərdə belə əhalinin vergi yükünün yüksəlməsinə səbəb olur.

Artıq Avropanın özündə də perspektivin son dərəcə ümidsiz olduğu etiraf olunur. Son olaraq Slovakiyanın Baş naziri Robert Fitso Avropa İttifaqının yaxın altı ay ərzində dağılma təhlükəsi ilə üzləşə biləcəyini bildirib. Fitso Aİ-dəki qeyri-sabitliyin artacağını proqnozlaşdıraraq, bu vəziyyətə təəccüblənməməyi tövsiyə edib. Onun sözlərinə görə, Fransa və Almaniyanın eqoist milli məqsədləri ittifaqın gələcəyinə mənfi təsir göstərir. "Aİ üçün daha böyük qeyri-sabitlik gözləyirəm", - deyə Fitso vurğulayıb.



### Sağçılar önə keçir

Hökumətin yarıtmaz idarəçiliyi Almaniyada da sağçıların önə çıxması ilə nəticələnib. Ölkədə aparılan sorğular göstərir ki, "Almaniya üçün alternativ" Partiyası son iki il ərzində tərəfdarlarının sayını 10 faizdən 22 faizə yüksəldib. Sözügedən partiya İkinci Dünya müharibəsindən sonra ilk dəfə Almaniyanın Türingiya vilayətinin parlamentində ən böyük qüvvəyə çevrilib.

Diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, Türingiya əyalətindəki yerli seçkilərdə rusiyayönümlü partiyalar ümumilikdə, 61,7 faiz səs toplayıb. Bu barədə "Bild" məlumat yayıb. Nəticələr göstərir ki, əksər seçicilər öz iqtisadi rifahlarından narahatdırlar.

Almaniyanın şərqindəki Saksoniya federal əyalətində də Landtaqa seçkilər keçirilib. İfrat sağçı "Almaniya üçün Alternativ" (AfD) 30,6 faiz, Sara Vaqenknext İttifaqı (BSW) - 11,8 faiz, Sol Partiya - 4,5 faiz səs toplayıb. Onların hamısı Ukraynanı dəstəkləməyin əleyhinə, Rusiyanı sakitləşdirməyə və Vladimir Putinlə dialoqa tərəfdardırlar.

**Hazırda Avropa İttifaqı ölkələri ciddi idarəetmə böhranı ilə üzləşib. Cari ilin yayında Avropa Parlamentinə keçirilən seçkilərin nəticələri təsdiqlədi ki, ayrı-ayrı ölkələrdə mövcud hakimiyyətlərə inam hədsiz dərəcədə aşağıdır. Bunu Avropa İttifaqında aparıcı mövqeyə malik olan Fransanın timsalında aydın şəkildə izləmək mümkündür. Makronun səriştəsiz idarəçiliyi ölkəni tarixinin ən pis dönəmi ilə üz-üzə qoyub. Yelisey Sarayı artıq bir neçə aydır ki, dərin hökumət böhranından çıxa bilmir**

### 40 illik fasilədən sonra təkrarlanan siyasi böhran

Aİ-nin ən böyük iqtisadiyyata malik ölkəsi olan Almaniya Yeni ilə yeni siyasi böhranla gedir. Bundestaqda Almaniya kansleri Olaf Şoltsa etimad məsələsi gündəmə gəlib. Şolts daha əvvəl müvafiq təkliflə dövlət başçısı Frank-Valter Ştaynmayerə müraciət edəcəyini bildirib. Bundestaqın buraxılmasından sonra 60 gün ərzində yeni seçkilər keçirilməlidir. Mövcud siyasi böhran isə bir sıra amillərdən yaranıb. Belə ki, hakim sağ koalisiya daxilində (Almaniya Sosial Demokrat Partiyası - SDP, Yaşıllar və Azad Demokrat Partiyası - FDP) büdcə, maliyyə və iqtisadi siyasət, o cümlədən Kiyevə əlavə yardım və sözdə borc əyləcinin yumşaldılması (büdcədən daxil olandan daha çox pul xərcləməyi qadağan edən qayda) məsələsi haqqında fikir ayrılıqları yaranıb

Xatırladaq ki, prezident artıq 2025-ci il fevralın 23-də növbədənkənar seçkilərin mümkün keçirilməsini təsdiqləyib. Seçkilərin nəticələrinə əsasən, yeni hökumət formalaşacaq, yeni kansler seçiləcək. Onu da vurğulayaq ki, kanslerə etimad məsələsi Almaniya tarixində cəmi beş dəfə Bundestaqda müzakirəyə çıxarılıb. Sonuncu dəfə Almaniya hökuməti 40 il əvvəl - 1982-ci ildə bu kimi siyasi böhranla üz-üzə qalıb.

*Mübariz FEYİZLİ*

***Bu qeydlər çox-çox əvvəllər istedadlı qələm sahibi, tanınmış yazıçı Miraslan Bəkirlinin yarıməsrlik doğum günü münasibətilə qələmə alınmış təəsüratlardır. Ancaq məqalə o vaxtlar heç bir mətbu orqana təqdim edilmədi, köhnə yazılar arasında qaldı. Bu yaxınlarda dəyərli ziyalı, filologiya elmləri doktoru, professor Almaz Ülvi Binnətovanın imzası ilə "Yeni Azərbaycan" qəzetinin 13 dekabr 2024-cü il sayında (230) dərc olunan maraqlı məqaləni oxuduqda keçmiş yazını eyni adlı qəzet səhifələrinə çıxarmağı vacib saydım. Bu qeydlər Miraslan Bəkirli şəxsiyyətinin, onun orijinal yaradıcılıq yolunun bir sıra maraqlı cəhətlərinə əlavə işıq salardı...***

# Bədii sözün qüdrəti



## Gələcək uğurlarına daha böyük ümid bəslədiyim istedad sahibi Miraslan Bəkirlinin yarıməsrlik həyat yoluna bir nəzər

Təxminən 20-25 il əvvəlin söhbətidir. Kiçik bir kollektivlə "Sovet Ermənistanı" deyilən respublika qəzetini buraxırdıq. Mənə məsul katib vəzifəsi etibar olunmuşdu. Qəzetin çapı ilə bağlı çox şey bu "bərədən" keçirdi.

Ştatlı işçilərlə yanaşı, "yerdən" yazanlarımız da vardı. Böyük əskəriyyəti ziyalılar, müəllimlər idi. Məktəblilər, ələlxüsus da öz gələcək həyatını jurnalistliklə bağlamağa meyl göstərən yuxarı sinif şagirdləri, məzunlar da qəzet səhifələrində görünməyə can atır, əksər hallarda da buna müvəffəq olurdular. Bu, həm də həyatın tələbindən irəli gəlirdi: qəzet yazısı jurnalist olmağa hazırlaşan abituriyent üçün ən yaxşı zəmanət hesab olunurdu...

Bir gün redaksiyaya ortaboylu, ağbəniz, arıq bir oğlan gəldi. Əlində bir dəstə şəkil tutmuşdu. Tanış olduq. Utana-utana: -Miraslan Bəkirov,-dedi. Sonra şəkilləri stolun üstünə qoydu. Respublikanın iri maldarlıq rayonu kimi tanınan Kalininodan (keçmiş Cəlaloğlu) idi. Tanıdım. Qəzetdə ara-sıra informasiyalarla çıxış edirdi, bir-bir şəkil də göndərirdi. Onun bu cəsarəti xoşuma gəldi.

Miraslanın şəkilləri bir o qədər də təkmil deyildi, adi aparatla çəkilmişdi. Ancaq "yerdən gələn səs", "azərbaycanlı həyatının təsviri" baxımından diqqət cəlb etməyə bilməzdi. Çünki fotoqrafımız qeyri millətin nümayəndəsi idi, özü də rayona çıxmağa bir o qədər də meyl göstərmirdi. Nəticədə Azərbaycan dilində çıxan qəzetdə illüstrasiya nisbəti pozulurdu... Bu "boşluğu" azca da olsa azaltmaq mənasında gənc fotoqrafın "işlərindən" bir neçəsini seçdim, tövsiyələrimi verdim, redaksiyanın tələbini izah etdim. Bu görüşdən sonra Miraslan qəzetin həyatında daha fəallıq göstərməyə başladı.

Növbəti gəlişlərin birində Miraslan foto-şəkillərlə yanaşı, stolun üstünə bir neçə vərəq də qoydu. Hekayə idi. Oxudum. Yazı məni yamanca tutmuşdu. Bir də oxudum. Çox xoşuma gəldi. Adi yazılardakı şablon süjet, müəllifin subyektiv "məni" görünmürdü. Dili rəvan və axıcı idi... Düzü, az qala gözlərimə inanmadım, haradasa ürəyimdən şühbəyəbənzər bir fikir də keçdi (belə hallar olurdu).

Redaksiya adətən çoxlu məktub alırdı. Əksəri Şer nümunələri olardı. Ara-sıra hekayə, yumoresko xarakterli yazılara da rast gəlirdik. Əməkdaşlar arasında bu "boşluğu" doldurmağa can atanlar da var idi. Həm də redaktorumuz-gözəl təşkilatçı, praktik jurnalisti, çox obyektiv və prinsipial partiya işçisi Cahangir Əliyev qəzetin keyfiyyətini yüksəltmək, yazıların kəsərini artırmaq üçün janr rəngarəngliyini həmişə diqqət mərkəzində saxlayırdı, ədəbi qüvvələri həvəsləndirmək üçün ayda azı 2 dəfə sonuncu səhifəni onların ixtiyarına verirdi. Vaxt ötdükcə Miraslanın hekayələri də bu "sonuncu səhifələrə" yol tapdı.



**Əsgər Əsgərov,**
**Respublika Jurnalistlər Birliyinin üzvü**
**8 mart 2005-ci il**

Nəsr nümunləri içərisində Miraslan Bəkirovun yazısını fərqləndirən nə idi? Hər şeydən əvvəl yüksək bədiilik, həyatilik, xarakterik faktları, epizodları bədii sözün qüdrəti ilə yüksəyə qaldırmaq, ülviləşdirmək! Əlimə keçən ilk nümunədəncə hiss etdim ki, Miraslan özünü, müəllifi hadisələrin, "ideya daşıyıcısının" ruporuna çevirmir, "fəal tərəfi", "güclü amili" (öz "mənini") yedəyinə alıb qabağa qaçmır, əksinə, hadisələri bədii yolla, təhkiyə üsulu ilə, özünəməxsus bir səmimiyyətlə, sadə xalq dilində obrazın təfəkkür tərzinə uyğun şəkildə, xalq deyimləri ilə "bəzəyərək" ortaya qoyur, təsvir və təqdim edir və sanki oxucuya deyir: Budur, əzizim, mənim məhsulum, "mətahım", buyur, dadına bax...

Tam səmimiyyətlə, üzgörənlikdən (iraq olsun!) kənar Miraslan hekayəsindən aldığım təəssürat, gəldiyim ilk qənaət belə olub. Həm də bu fikir, bu qənaət indi də məni tərk etməyib və bir qədər də irəliyə gedib deyim ki, çox şükür, Miraslan Bəkirli bu amala, bu sevgiyə, bu ənənəyə, demək olar ki, bütün yazılarında sadiq qalmış, qalır və yəqin ki, gələcəkdə də sadiq qalacaqdır. Nəticəsi isə oxucunu sevindirən gözəl sənət əsərləri olacaqdır.

Doğrusu, bu istəyi, bu arzunuyəqin Miraslanın özü də etiraf edər,-o vaxtlar, hələ 80-ci illərdə özünə demiş, bir ərkyanalıqla təkid də etmişdim: Gözəl oğlan, durma, yaz, vaxt itirmə, sənin qeyri-adi dəst xəttin var...

Bu söhbətdən azca sonra bizim qəzetdə Miraslanın "Giley", "Kişisiz ev" kimi hekayələri dərc olundu, dərhal da oxucu rəğbəti qazandı, letuçkalarda təqdir edildi...

Məsələ var, deyərlər: "Say saydığını say...". Miraslan tamambaşqa arzularla yaşayırdı. Birdən...bəxtinə "köçkünlük qisməti" düşdü. O, doğulub boya-başa çatdığı Cücəkənddən-şifahi və yazılı nitqinə, eləcə də bədii yaradıcılığına hakim kəsilmiş bu əyalət kəndindən köç edən həmkəndlilərin dəstəsində doğma yurdla vidalaşaraq Bakıya pənah gətirdi. Vəziyyət nə qədər ağır olsa da, Miraslan qələmi yerə qoymağı, televiziyada işləyə-işləyə bədii yaradıcılığını da davam etdirdi. "Çən qarısı", "İstək", "Kəndim-kədərim" kitabları işıq üzü gördü. "Azərbaycan" jurnalı onun iri həcmli romanını dərd etmişdir...

XXX

Miraslan Bəkirli nədən yazır-yazsın, onun seçdiyi "obyekt", müraciət etdiyi sahə adi həyatımızın bir parçası, daim nəzər-diqqət tələb edən problemlərdir. Ancaq Miraslan öz "tədqiqat obyektini" elə təsvir edir, elə dillə, obrazın xarakteri ilə səsləşən ifadələrlə "bəzəyib" ortaya qoyur ki, nəticə etibarilə "iş" çox orijinal, təravətli, qaneedici alınır, oxucunu razı salır, müəllifinə hörmət qazandırır. Təkcə "Həsrət" hekayəsinin qəhrəmanı Məmişin təzadlı nakam taleyinə nəzər salmaq kifayət edər. İlk abzasdanca müəllif sanki oxucunu ovsunlayır, onu "tərksilah" edib arxasınca aparır, hadisələrin "axarından kənara buraxmır". Bu kiçik parça o qədər təbii, o qədər inandırıcı, obrazlı verilib ki, "daş qəlbli" oxucu belə göz yaşını saxlaya bilmir, hönkür-hönkür ağlayır, özgə torpaqları tutmaq bəhanəsi ilə Qarabağ faciəsini meydana atanlara min-min lənət yağdırır. Həm də oxucu bu həyati, bu xarakterik epizodu bədii sözün siqləti ilə göylərə qaldıran, ülviləşdirən müəllifə istər-istəməz ürəyində təşəkkür sözləri bildirir... Hekayə sənədli film üçün çox gözəl süjetdir.

Miraslan cəfakeş, öz şəxsi hərəkəti, davranışı ilə nümunə göstərən yazıçıdır. Hələ 1996-cı ilin avqustunda ölümü gözləri altına alaraq doğma yurda-Cücəkəndə səfər etməsi, o yerləri obyektivə köçürərək "dolu çanta" ilə Bakıya qayıtması şəxsi fədakarlıqdan, yurd həsrəti yanğısından başqa bir şey deyil... Bu səfər nəticəsində "Kəndim-kədərim" povesti yarandı. Belə bir cəsarət, "partizanlıq" hələmhələm hər oöula xas deyil. Doğma torpaq, ölülər və dirilər barəsində sənədli yazı və film ortaya qoymaq qəhrəmanlıqdır.

Bəkirlinin yaradıcılığında daha bir cəhət qabarıq şəkildə özünü göstərir: onun hekayə, povest, romanlarında yurd yerinin toponimikası hər addımbaşı oxucunun "rastına çıxır", köçkün, didərgin, yazıçı, ziyalı, vətəndaş üçün, fərqi yoxdur, bu, çox önəmli haldır. Yoxsa, əsrlər ötəndən, nəsillər köç edəndən sonra bu coğrafi adlar da unudula bilər. Onları yaddaşlarda yaşatmaq üçün Miraslan müəllim gözəl priyom seçmişdir. Təqdirəlayiq haldır...

XXX

Bəkirli Miraslan, onun yaradlıcılığının bəzi xüsusiyyətləri, qazandığı uğurların sirləri barədə çox şey demək, daha tutarlı mülahizə yürütmək olar. Onun həyat amalı, əlimizin altında olan bədii nümunələri buna tam və dolğun əsas verir. Bu yazı da adi oxucu qeydi olduğu üçün burada fikrimizi tamamlayıb əvvəlki qaydada təkidlə israr edirəm: Yaz, yarat, Miraslan, səndə istedad da var, həvəs də var, xammal da, dərin müşahidə qabiliyyəti də, yüksək ümumiləşdirmə bacarığı da, gözəl dil də, bədii təsvir üsulları da.

Uğur olsun, 50 yaşın mübarək!

Sənə inanıram, əminəm ki, oxucu (bəlkə elə mən özüm də) Azərbaycan nəslini sayılıb-seçilən şah əsərlərini yarada biləcək beş-on samballı müəllif içərisində bir imza da görə biləcəkdir: Miraslan Bəkirli!

Bunun bir balaca geci-tezi ola bilər!

# Şərab şüşəsində saxlanan zaman

## Rey Bredberinin "Zəncirotu çaxırı" romanı haqqında

Onu fantast yazıçı adlandırırlar, ancaq ona qalsa, gərək Füzuli də fantast şair sayıla. Bredberinin fantaziyası elmi yox, bədii fantaziyadır, onun fantastik çevrilmələri poetik təxəyyülün uçurduğu xəyallar, qanadı çıxmış obrazlardır, onun reallığı aşan gedişləri şairanə təşbehlər, gerçəkliyin çərçivəsini qırıb ədəbi şərtilik müstəvisində at oynadan fantasmaqoriyalardır.

Yazıçının gələcəyə dartınan xəyalları arasında çin çıxanı da var, çıxmayanı da. İnsafən o özü də elmiliyə çox meyilli, iddialı deyildi, texnikadan qaçırdı, gəncliyində gözünün qabağında baş vermiş ağır avtomobil qəzasından sarsıldığına görə uzun ömrü boyu bir dəfə də sükan arxasına keçməmişdi, təyyarəyə yalnız altmış iki yaşında minmişdi. Nə olsun ki, Marsda həyat tapılmadı, onun "Mars xronikaları" silsiləsi bu gün də maraqla oxunur, çünki orada çılpaq planetdən yox, min rəngli insan sifətindən, min sifətli insan xislətindən danışılır. Bizim planetimiz də, başqa planetlər də bu insandan ötrü yalnız fondur.

Bizdə çoxu onu antiutopiya janrında yazılmış "Farengeyt üzrə 451 dərəcə" (yeri gəlmişkən, bu əsərdəki elmi təsbitində də yazıçı yanlışa yol verib) romanına görə tanıyır. Uzun sürmüş yaradıcılığı boyunca adını çəkdiklərimdən başqa daha bir neçə roman, onlarla pyes, yüzlərlə hekayə yazmış olsa da, Rey Bredberi ədəbiyyat aləmində ilk növbədə avtobioqrafik detallarla zəngin "Zəncirotu çaxırı" romanına görə tanınır. Bəri başdan deyim ki, mən bizim torpaqların da bol-bol bəsləyib ətə-qana doldurduğu bu bitkidən alınma şərabı görməmişəm, ümumiyyətlə, zəncirotudan şərab çəkilib-çəkilmədiyini bilmirəm (deyilənə görə, belə bir şərab növü var), ancaq bunu bilirəm ki, ölkəmizin bəzi bölgələrində cürbəcür bitkilərdən, məsələn, nanədən, pişpişədən çəkilən cövhərə "nanə arağı", "pişpişə arağı" deyirlər, ola bilsin, zəncirotunun adına qoşulmuş "çaxır" sözü də bu sayaq rəmzi məna daşıyır, bitkidən çəkilən cövhəri ifadə eləmək üçün işlənir.

***

Romanın kompozisiyası olduqca sadədir; əsərdə 1928-ci ilin yay tətili boyunca baş vermiş hadisələr xronoloji ardıcıllıqla nəql olunur, oxucunun gözü qarşısında cürbəcür təbiət mənzərələri, həyat hekayələri, insan xarakterləri canlanır. Bu hekayələr süjet baxımından bir-birindən, demək olar, asılı deyil, hər biri müstəqil oxuna bilər. Ayrı-ayrı hekayələri bir sapa düzən isə bu hekayələrdə baş verənlərə əsasən eyni bucaqdan - müəllifin altereqosu on iki yaşlı Duqlas Spoldinqin (Duqlas yazıçının ikinci adı, Spoldinq nənəsinin soyadı idi) gözüylə baxılmasıdır. Meterlinkin "Göy quş"u, Ekzüperinin "Balaca şahzadə"si kimi Bredberinin romanı da uşaqlardan danışmağına baxmayaraq uşaq ədəbiyyatı sayıla bilməz.

1928-ci ilin ilk yay səhərini bu məktəbli oğlan babasının İllinoys ştatının iyirmi altı min nəfərdən çox sakini olan Qrintaun şəhərciyindəki yaraşıqlı evinin üst mərtəbəsində açır. Uşaq vaxtı hər tətildə kəndə qaçan baba-nənə uşağı kimi mən gözlərini belə bir səhərə açmağın nə qədər böyük xoşbəxtlik olduğunu yaxşı bilirəm. Pəncərədən eşiyə boylanan Duqlas əllərini sehirbaz kimi havada oynadır, guya dan yeri onun hökmüylə ağarır, şəhər əhli onun göstərişiylə yuxudan oyanıb yeni günə başlayır.

O səhər Duqlas atası, bir də on yaşlı kiçik qardaşı Tomla birgə meşəyə cır üzüm yığmağa gedir. Orada oğlanı gur həyat axınının şirin dalğası vurur, damarda qanının necə oynadığını, əzələlərinin necə gərildiyini ləzzətlə hiss eləyən Duqlas evə sərxoş kimi qayıdır. Uşaq ilk dəfə öz varlığına sevinir, sağ olduğunu, diri olduğunu ilk dəfə təsbit eləyir, bu təsbitini dönə-dönə təkrarlayır. İlıq yayın kəramətiylə on iki yaşlı oğlanın cismi oyanır, qırışığı açılır, o, həyatın dadını duymağa başlayır.

***

Tezliklə zəncirotu çiçək açır, göy çəmənlər qızılı rəngə boyanır. Uşaqlar bu çiçəkləri toplayıb babalarına daşıyırlar, baba hər torbaya görə onlara on sent mükafat verir. Sonra kişi zirzəmidəki xüsusi qurğuyla zəncirotunun canını gövdəsindən ayırır, çiçəyin cövhərini çıxarır. Zəncirotu çaxırı - axan zamanın içində əllə tutulan, tora salınan, şüşələrə doldurulub ağzı bərk-bərk tıxanan yaydır. Uşaqlar hər gün çəməndən zəncirotu yığırlar, baba da hər günün çiçəyindən şərab çəkib ayrıca şüşəyə doldurur, üstünə tarixini yazır. Beləcə, onlar ılıq yay günlərini bir-bir tutub şüşəyə salırlar, ələ gəlməyən zamanı maddiləşdirib görünən, qoxuyan, dadan bir hala gətirirlər.

Bu şərabın canında ucqar dağ göllərinin saf damlaları, məxmər çəmənliklərin dumduru şehi, buludları qovan yellərin təmiz nəfəsi, göydən yerə şığıyan şimşəklərin bakirə enerjisi, isti yay günəşinin kəhrəba şirəsi, oyanmış torpağın yuxulu yaddaşı var. Qışda bu şüşələrin ağzı açıldıqca qarla-buzla örtünmüş yerin üstünə, zəhmli qara buludların altına təptəzə yay doğacaq - qar əriyəcək, altından yaşıl otlar boy göstərəcək, göyün üzü açılacaq, ağaclar, yarpaqlar, çiçəklər, kəpənəklər gün üzünə çıxacaq. Ötən yayın parlaq cövhəri qədəhlərə süzüləcək, soyuqdan xəstə düşənlər bu möcüzəli iksirdən - isti yaydan qurtumladıqca şəfa tapacaqlar, sözün gerçək mənasında yayın dadını çıxaracaq, şirəsini çəkəcəklər.

Göründüyü kimi, Rey Bredberi zəncirotu şərabını panteistik metamorfozların simvoluna çevirib, ana təbiətin bəsləyib boya-başa çatdırdığı min ünsürü bir qaba yığıb. Belə çıxır ki, o qablarda sayrışan bir tək zəncirotunun yox, cəmi təbiətin cövhəridir.

***

Çiçək yığmağa gedəndə Duqlas Con Haf, Çarli Vudmen adlı tay-tuşlarıyla rastlaşır. "Yay uşaqları" əvvəl şəhərdə, sonra da şəhər kənarında gəzintiyə çıxırlar, sivilizasiyanı təbiətdən ayıran sirli-sehirli dərə onları özünə çəkir. Bura şəhərlə meşənin, mədəni aləmlə vəhşi aləmin sərhədidir, burada insanla təbiət daimi müharibə vəziyyətindədir. Bilmək olmur, təbiət sərhədi pozub sivilizasiyanın içərilərinə doğru kök atır, yoxsa insan təbiətin ərazisinə soxulub onu qarış-qarış zəbt eləyir.

Yayın ikinci günü Duqlasın qarşısında daha bir məsələ durur: yeni tennis ayaqqabıları almaq. Keçənilki ayaqqabılar artıq heydən düşüb, tənbəlləşib, öz sehrini itirib, balaca qəhrəmanın qanadlı xəyallarıyla ayaqlaşmaq hünərində deyil. Yeni tennis başmaqlarısa Duqlasın təbiətlə vəhdətini bərpa eləyir, maral dərisinin qaxacımış əzələləri oyanıb-dingildəyib onun yerişinə təkan verir, gücünə güc qatır. Uşağın ana torpaqla birbaşa təması yaranır. Həmin gün Duqlas özünə bir bloknot da alıb gündəlik tutmağa başlayır, zamanı bir də bu yolla əlində-ovcunda saxlamağa çalışır.

Üçüncü gün baba nəvələrindən ötrü yelləncək asır, yayı bir az da dadlandırır. Nəvələriylə birgə tütün dükanının yanından keçəndə o, bura yığışmış kişilərə deyir ki, qorxunc silahların dağıdıcı gücündən danışmaqdansa xoşbəxtlik maşını icad eləmək barədə düşünün. Bu təklif şəhərin zərgəri Leo Aufmanın ağlına batır.

Bu arada Tom da özünə görə kəşf eləyir. Bir axşam Duqlas evə qayıtmayanda anası onu da götürüb böyük oğlunu soraqlamağa gedir. Neçə vaxtdır adamlar arasında şayiə gəzir ki, meşəni şəhərdən ayıran dərəyə insan qanına yerikləyən manyak dadanıb, tez-tez şəhərə adam ovuna çıxır. Onu yanına salıb toranlıqda övladını dörd gözlə axtaran həyəcanlı anasının necə uçunduğunu, onun barmaqlarını sıxan əlin necə titrədiyini duyan Tom anlayır ki, insan dünyada təkdir, hər kəsin qisməti budur, ölümsə doğma adamın getdiyi yerdən qayıtmamasıdır. Uşağı qaramat basmaqdaykən o, qaranlıqdan qardaşının səsini eşidir, elə bu vaxt zülmət xofu qara duman kimi dağılır.

Baba ot çalan dəryazın səsi altında yuxuya getməyi xoşlayır. Günün birində Spoldinqlərin həyətini ara-sıra biçən gənc jurnalist Bill Forester özüylə yeni ot toxumu gətirir - bu toxumdan cücərən ot bir az boy verəndən sonra uzanmayacaq, onu tez-tez biçməyə ehtiyac qalmayacaq. Bunu biləndə baba qəzəblənib özündən çıxır, Foresterin haqqını ödəyib ona bərk-bərk tapşırır ki, bic toxumları onun həyət-bacasından uzaq eləsin. Belə görünür insan-təbiət savaşında baba təbiətin, təbiiliyin tərəfindədir.



**F.Uğurlu**

**davamı növbəti sayımızda**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






## Şənbə üçün NƏZM





*Ruzbeh Məmməd*

***

Bir cib sıxıntı, bir ürək darıxmaq
Uzaq düşəsən qəfil qohumundan, yadından,
xəbər tutmaya kimsə olduğun ünvanından.
Qeybə çəkildiyini sənin öz qadınından
bir başqa kəs duymaya, danışanın olmaya
öldürəsən özünü, qarışanın olmaya...

Daraya saçlarını yuxuna canı yanmış,
sənə təsəlli verə bu həyatdan usanmış.
Ölüb qalasan elə yer üstündə uzanmış, -
boş yerə gözün sıxan, ağlaşanın olmaya,
sonra da adam-adam soruşanın olmaya...

İnsafsızca darıxıb sıxılasan en qədər,
namərdcə düşünən də darıxa səndən betər.
Gedəsən qapısına, getdiyin ola hədər,
çıxıb sənlə gözbəgöz baxışanın olmaya,
gəzəsən küslü-küslü barışanın olmaya...

Qovmaya bir pişiyi küçənin azğın iti,
oyatmaya süd satan səni səhərlər qəti.
Ömür də çox olmaya, ola lap müvəqqəti,
nə əlli, nə altmış - çox da yaşın olmaya,
yatasan torpaq altda, qəbir daşın olmaya.

Bu qədər bəs deyilsə,
bir qədər də sərt darıx.
Mən də çıxıb gedirəm
gedirəm, qürbət, darıx.

Tək görüb də batan dərd,
məni bura atan dərd...
Üzüqoylu yatan dərd,
başını tərpət, darıx.
Gəlmişik ikimiz bir,
dərdimiz, yükümüz bir.
Darıxdıq ikimiz bir,
bir az da xəlvət darıx.

# Yalan xəbərlər...

## Dezinformasiyalara qarşı necə mübarizə aparaq?

**Yalnız Azərbaycan deyil, bütün dünya saxta, təxribatçı, yalan xəbərlərin yayılmasından əziyyət çəkir. Məlumdur ki, dezinformasiyalar, yayılması qadağan olan məlumatlar əsasən sosial şəbəkələr üzərindən asanlıqla tirajlanır. Təbii ki, oturuşmuş cəmiyyətlərdə, böyük, güclü dövlətlərdə feyk xəbərlərə inananlar az olur. Çünki həmin ölkələr təxribatçı, yalan informasiyaların ayaq aça bilməməsi üçün müvafiq əks mexanizm qurublar. Media ekspertlərinin qənaətinə görə, saxta xəbərlərin cəmiyyətlərdə yayılmasının qarşısını yalnız sağlam, böyük oxucu kütlələri olan, etimad göstərilən media qurumları ala bilər. Onların fikrincə, bu sahədə iş müasir dövrün tələblərinə uyğun şəkildə qurulmalıdır. Belə ki, ciddi, doğru, yoxlanılmış xəbərlər yayan, dezinformasiyaları tez bir zamanda deşifrə edən saytların izləyicisinin, oxucusunun, qəzetlərin tirajının maksimuma çatdırılmasına nail olunmalıdır.**

### Sosial medianın riskləri...

Mövzunu “Yeni Azərbaycan”a şərh edən tanınmış telejurnalist, professor, Əməkdar jurnalist Qulu Məhərrəmli bildirib ki, internet texnologiyalarının sürətlə inkişaf etdiyi bir dönəmdə yanlış və saxta xəbərlərin daha çox şahidi olmağa başlamışıq. Onun sözlərinə görə, xüsusən də sosial mediada bəzən doğru ilə yalanın bir-birinə necə qarışdığının şahidi oluruq.

Professor qeyd edib ki, sosial media hər nə qədər informasiyanı sürətli bir şəkildə əlçatan etsə də, gətirdiyi risklər də göz önündədir: “Dezinformasiya yayanlar bunu bilərəkdən, düşünülmüş qaydada, hansısa məqsədlərə xidmət etmək üçün edirlər. Bunu bəzən məlumatsızlıqdan, kortəbii yayılan saxta məlumatlarla eyniləşdirirlər, ancaq bu, belə deyil. Dezinformasiyanın yayılması daha da təhlükəlidir, bunun arxasında bəzən hansısa siyasi məqsədlər də dura bilir. Xüsusən də, müharibə, təbii fəlakətlər kimi həssas dönəmlərdə biz bunun daha çox şahidi oluruq”.

Q.Məhərrəmlinin sözlərinə görə, media savadlılığı məqsəd və mahiyyət etibarı ilə auditoriyaya ötürülən, əldə olunan, oxunan, rast gəlinən informasiyanı dəyərləndirmək, qiymətləndirmək və onu tanımaq bacarığıdır: “Ona görə də Avropa ölkələrində, qardaş Türkiyədə hətta orta məktəblərin dərslik proqramına media savadlılığı adlı bölmə əlavə olunub və 10 ildən çoxdur ki, bu tədris olunur. Bunun əsas məqsədi informasiya aləmi ilə tanışlıqdır. KİV-də gedən müxtəlif

### Dünya təcrübəsi nə deyir?

xarakterli informasiyaların xarakterini, səciyyəsini, məqsədini, onun doğru olub-olmamasını aydınlaşdırmaq səriştəsidir. Media savadlılığı üçün ümumiyyətlə media aləmini, medianın əsas məhsulu olan məlumatların xarakterini, xəbər parametrlərini bilməliyik. Məsələn, oxucu xəbərin dolğun, doğru və yaxud dezinformasiya olmasını necə müəyyənləşdirməlidir? Həmin oxucuda xəbər parametrləri nədir, media qurumunun əsas məqsədi nədir, xəbər konkret mənbələrə əsaslanırmı, xəbər hansı məqsədi güdür, xəbərdə təbliğat çaları varmı, xəbərdə başqa niyyət varmı kimi müəyyən məlumatlar olmalıdır. Bunların hamısı incə məqamlar olduğuna görə, bunu orta məktəblərdə tədris edirlər. İnformatika dərsi keçirilir, informasiya azadlılğı ilə bağlı bunların hamısı bütöv bir şəkildə auditoriyaya təqdim olunur”.




Q.Məhərrəmli vurğulayıb ki, media savadlılığının iki aspekti var: “Birincisi, ümumi auditoriya, bütün vətəndaşlar və cəmiyyət üzvləri üçün lazım olan media savadlılığıdır. Yəni bizim media haqqında anlayışımız və medianın əsas məhsulu olan informasiya haqqın-

### Media savadlılığının əsasları...

da məlumatımızın olmasıdır. İkinci aspekt də media savadlılığının KİV-i, media qurumlarının özündə olan media savadlılığıdır ki, bu, sırf peşəkarlıq məsələsinə söykənir. Yəni, xəbərlərin doğru, mənbəyə əsaslanan, balanslı verilməsi, xəbər parametrlərinə əməl olunması, xəbərin suallarının doğru-dürüst bilinməsi, araşdırmaların düzgün aparılması. Bunların hamısı bütöv şəkildə media savadlılığının və medianın özündə olan savadlılığın əsasını təşkil edir”.

Professor qeyd edib ki, saxta informasiyaya qarşı mübarizə aparmanın ən yaxşı yolu doğru-düzgün məlumatların yayılmasıdır: “İndi xüsusi proqramlar vasitəsilə şəkillərdən tutmuş yazılı

### Çıxış yolu nədir?

məlumatlara qədər - bunların hamısının saxta olub-olmadığını müəyyənləşdirmək mümkündür. Süni intellekt bu məsələyə həm fayda verir, həm də ciddi problemlər yaradır. Ona görə də ümumi səviyyənin olması, jurnalistika qaydalarına əməl edilməsi çox önəmlidir ki, saxta xəbəri doğru xəbərdən ayıra bilək”.

*Yeganə BAYRAMOVA*

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**


### İtmişdir

Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən Ələkbərli Ələkbər İlqar oğluna verilmiş veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.






## Azercell süni zəka texnologiyasına əsaslanan “AI Chat Bot” xidmətini təqdim edir

### Yeni həll müştəri sorğularının 24/7 rejimində operativ şəkildə cavablandırır

Azərbaycanın lider mobil operatoru Azercell yerli telekommunikasiya bazarında daha bir yeniliyə imza atır. Şirkət “Azercell” mobil tətbiqi daxilində süni zəka texnologiyası əsasında işləyən innovativ “AI Chat Bot” həllini istifadəyə verir.

Bu gündən etibarən “AI Chat Bot” tətbiqin “chat” bölməsində müştərilərə operativ və fasiləsiz xidmət göstərir. Belə ki, abunəçilərə ən üstün müştəri təcrübəsini təqdim etməyə yönəlmiş yeni həll sorğuları 24/7 rejimində cavablandırır. Hazırda “AI Chat Bot” yalnız Android platformasında mövcuddur, lakin tezliklə iOS istifadəçiləri üçün də əlçatan olacaq. Xidmətdən yararlanmaq üçün tətbiq yenilənməlidir.

Yeni xidmətin üstünlükləri:

* Müştəri sorğularını ani emal edir;

* Onlayn müştəri xidmətlərində gözləmə vaxtını əhəmiyyətli dərəcədə azaldır;

* Müştərilərə daha sürətli və effektiv həll yolu təqdim edir.

Həmçinin tətbiqin yeni versiyasında istifadəçilər xüsusi bölüm vasitəsilə tətbiqin funksionallığına dair təklif və istəklərini də rahatlıqla göndərə bilərlər.

Qeyd edək ki, Azercell ötən il Azərbaycan dilində tam spektr xidmət göstərən süni zəka əsaslı ilk virtual assistenti - “Aicell”i təqdim edib. Abunəçilərin bir çox sorğusunu özü icra edən “AiCell” ehtiyac olduqda zəngləri IVR və ya operatora yönləndirir.

Hər iki xidmətin ünsiyyət funksiyaları və xidmət imkanları daima genişləndirilir.

Şirkət yeni xidmətləri ilə bağlantını asanlaşdırıb, həyatı daha dolğun etməyi hədəfləyir.

“Azercell” tətbiqini indi yükləyin və süni zəka texnologiyasının üstünlüklərindən faydalanın!

Ətraflı məlumat üçün:
https://www.azercell.com/az/


## *İdman*

### Fərid Qayıbov: Bu il Azərbaycan boksu üçün uğurlu oldu



“Növbəti dəfə boks üzrə Azərbaycan çempionatını izləmək çox xoş hissdir”.

AZƏRTAC xəbər verir ki, bu sözləri gənclər və idman naziri Fərid Qayıbov kişi boksçular arasında təşkil olunan Azərbaycan çempionatının bağlanış mərasimi zamanı deyib.

O bildirib ki, 2024-cu il Azərbaycan boksu üçün uğurlu olub: “Yüksək nailiyyətlər əldə olundu. “Paris-2024” Yay Olimpiya Oyunlarında gümüş medal qazandıq. Ölkəmizdə boks inkişaf edir. Artıq paytaxt və bölgələrdə boks zalları istifadəyə verilib. Federasiyanın bu idman növünə olan dəstəyi yüksək səviyyədədir. Kiçik yaşlı uşaqlarımızın da boksa olan marağı böyükdür. Bu, bizi xoşbəxt edir”.

Qeyd edək ki, kişilər arasında Azərbaycan çempionatına bu gün yekun vurulacaq. Qadın boksçuların Azərbaycan çempionatı isə artıq başa çatıb. 2 çəki dərəcəsində medalçılar bəlli olub. Həmçinin 5 çəkidə Boks Federasiyasının seçmə turnirinin qalibləri müəyyənləşib.

### Xankəndidə 50 ildən sonra badminton üzrə ölkə çempionatı keçiriləcək




Badminton üzrə ölkə çempionatı 50 ildən sonra yenidən Xankəndidə keçiriləcək.

Azərbaycan Badminton Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, ölkə çempionatının final görüşləri Xankəndi şəhəri 4 nömrəli tam orta məktəbdə oynanılacaq.

Dekabrın 21-də keçiriləcək həlledici qarşılaşmalar saat 12:00-da başlayacaq.

### Azərbaycan və Almaniya antidopinq sahəsində əməkdaşlığı genişləndirir




Bakıda Azərbaycan və Almaniya Milli Antidopinq Agentlikləri arasında anlaşma memorandumu imzalanıb.

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, memorandumu AMADA-nın icraçı direktoru Təhminə Tağı-zadə və Almaniya Milli Antidopinq Agentliyinin İcraiyyə Şurasının sədri Lars Mortsiefer imzalayıblar.

Memorandumun məqsədi AMADA-nın Ümumdünya Antidopinq Məcəlləsinə və Beynəlxalq Standartlara uyğun fəaliyyətini təkmilləşdirmək üçün nəticələrin emalı, təhqiqat, tibb, testetmə, təhsil və digər sahələrdə Almaniya Milli Antidopinq Agentliyi ilə təcrübə mübadiləsi, birgə konsultasiyaların həyata keçirilməsi və hər iki qurumun əməkdaşlarından ibarət işçi qruplarının yaradılması və sair kimi istiqamətlərdən ibarətdir.

Gələcəkdə bu anlaşma memorandumu əsasında müxtəlif sahələri əhatə edən ikitərəfli müqavilələrin imzalanması da nəzərdə tutulur.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4800
Sifariş: 2956
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova